Mirhəmid Qənizadə

QƏM KÖNLÜMƏ GƏLİN KÖÇÜB

MİRHƏMİD QƏNİZADƏ

QƏM KÖNLÜMƏ GƏLİN KÖÇÜB

(Şeirlər)

Bakı - Mütərcim - 2009

Kitabların kitabı, incilərin incisi
məhəbbət haqqında kitabdır.
Şeyx Nizami Gəncəvi

Bu kitabı bütün Yaranışın səbəbi, başlanğıcı və sonu olan
Ulu EŞQə ithaf edirəm!

Redaktor
OQTAY RZA

Mirhəmid Qənizadə. Qəm könlumə gəlin köçüb (şeirlər).
Bakı: Mütərcim, 2009.-160 səh.

Q $\frac{4702060000}{026}$ 61-09

M.Qənizadə, 2009

QƏMDƏN YAZANLARIN BİRİ DƏ ARTDI...

Mirhəmid Qənizadə ilk şeirini ömrünün 46-cı baharında yazıb çap etdirməklə mətbuat səhifələrində öz imzasını rəsmiləşdirib. Bəlkə də əlyazmalarının yaşı sətirlərinin işıq üzü görməyindən çoxdur. Amma qəzetdə və ya dərgidə müəllifliyin açıqlanması qələm adamının həvəs və məsuliyyətini müəyyən qədər artırır.

O, 1958-ci ilin dekabrın 21-də Azərbaycanın qədim mahallarından biri sayılan Muğanda, Biləsuvar rayonunun İsmətli kəndində dünyaya gəlib. Bu kiçik yazıda kimlik tarixindən danışmaq məqsədim yoxdur. Ancaq bir cəhəti iftixarla qeyd etməliyəm ki, Mirhəmid bəy iki univerisitetin: 1981-ci ildə Bakı Slavyan universitetinin və 1966-cı ildən indiyədək qoynunda dərs keçdiyim qocaman ali təhsil ocağının (ADPU-nun) məzunudur. Onunla 2005-ci ilin yayında tanış olmuşuq. Məlumdur ki, enişli-yoxuşlu yollar, yaxın-uzaq ünvanlı səfərlər insanları sanki sınaqdan çıxarır: tanışları səmimi yoldaşa çevirir, dostları isə bəzən etibarsızlığa görə aşağı pillələrə qaytarır. Biz kiçik saylı heyətdə İsmayıllının dilbər guşələrindən birinə gözəlliklər və misgərlər məkanı Lahıca yollandıq ki, 90 yaşlı ağsaqqalı yubileyi münasibətilə təbrik edək. Mirhəmidin xeyirxahlığı, qısa və mənalı qeydləri, musiqiyə və ədəbiyyata aid düşüncələri xoşuma gəldi. Xüsusən, hardasa iradabənzər söz eşidəndə üzündə gördüyüm xəfif təbəssüm həmkarıma rəğbətimi gücləndirdi.

Lahıc səyahəti zamanı müğənni kimi hörmətimizi qazanmış M.Qənizadə 2-3 aydan sonra üzvü olduğum kafedraya güzarını saldı. "Sudan gələn sürməli qız" xalq mahnısının mahir ifaçısı mənimlə

görüşə şeir gətirmişdi. Bir qədər heyrətləndim, ona görə ki, indi ölkəni şeir yazmaq dalğası bürüyüb, o cümlədən, kəmiyyət keyfiyyəti üstələyib. Lakin dinlədiyim qoşmalardakı ilıq nəfəs, təbiilik, ürəkdən süzülüb gələn duyğu pıçıltıları Mirhəmid yaradıcılığına diqqətimi cəmləşdirdi. Mövzularda, təsvirlərdə ara-sıra bəzi xətalar nəzərə alınmazsa, çıxardığım nəticə müsbət idi. "Mirhəmid, müğənniliyin qənaətbəxşdir, amma şairlik sahəsində irəliləyiş üçün çox çalışmalısan. Ədəbiyyat meydanına girənlər istedadını iradənin və zəhmətin köməyilə qoruyub saxlayırlar. Yaza-yaza həm də çoxlu kitab oxu!" - dedim ona.

...Budur, xeyli fasilədən sonra gələcək toplunun əlyazmaları qarşımdadır. Oxuduqca maraqlı məqamlarla, işıltılı misralarla, həzinlik yayan qəlb çırpıntıları ilə seçilən nümunələrlə qarşılaşıram.

Mətbuat səhifələrində şair-publisist, şair-bəstəkar, rəssam-şair ifadələrinə rast gəlirik, Mirhəmid üçün müğənni-şair demək yerinə düşür. Yəqin elə bir dövr gələcək ki, ona şair-müğənni, nəhayət yalnız şair söyləyəcəyik.

Onun sevib-seçdiyi poeziya növü (janrı) qoşmadır. Şeiriyyətin bu qoluna ən çox aşıqlar söykənirlər. Lakin Mirhəmid bəyin qoşmalarında şairlik ruhu qüvvətlidir. Müəllif birinci kitabına "Qəm könlümə gəlin köçüb" başlığını yaraşdırıb. Ümumiyyətlə, ədəbiyyatımızda, xüsusən, poeziyada qəm mövzusu hələ də mühüm yer tutur. M.Füzulinin "Qəm karvanı" söz səhrasında addımlayandan bəri bu yöndə minlərlə əks-səda eşidilib. Təxəllüsü "qəm" kəlməli müəlliflər də az deyil (Qəmküsar, Qəmli...). Mənim redaktəmlə bu yaxınlarda Hacı Salman Səlyaninin çapdan çıxmış iri həcmli kitabının da sərlöhvəsində "qəm" var: "Qəmdən qəzəlxan olmuşam".

Yavaş-yavaş keçirəm Mirhəmid bəyin qələm məhsullarının şərhinə. Qoşmalar Vətən, təbiət, insanlıq sevgisi ilə zəngindir. Fəqət toplunun "baş qəhrəmanı" müqəddəs "Qəm"dir. Həyat, yaşayış, mövcudluq təzadlar silsiləsindən ibarətdir: ölmək-doğulmaq, sevinc-kədər, işıq-zülmət, vüsal-ayrılıq... Bu səpgidə tərənnümlər toplunu səciyyələndirən əlamətdir. Buna baxmayaraq "qəm şairi" bütövlükdə

Nikbinlik aşılayır.

Müəllifin kəlam səciyyəli sətirlərindən bir neçəsini misal göstərə bilərəm: "Mənim eşqim ilk məhəbbət çağası", "Eşq - İlahinin töhfəsi", "Məhəbbətsiz dünya gərək dağıla", "Ağlımı elə almısan, dəli məndən ağıllıdır"... Mirhəmid müəllim ecazkarlıq, gözəllik vurğunudur. Oxucu ilə həmrəylikdə tapıntıları onun köməyinə çatır:

a. Səsini avaz bilmişəm;
b. Allah səni tək yaradıb,
Sanki bir mələk yaradıb.
s. Can alan qaşların silahın olsun;
d. Qəlbimi özünə yurd yeri bil sən.

Şeirlərin böyük bir qismi "adlı, ünvanlı"dır. (O.Rza). Topluda onlarla qadın və kişi adlarına yer ayrılıb: Ruhiyyə, Səbinə, Süsən, Aygün, Şəlalə, Təranə, Aysel, Məhnaz, Elnurə, Pərvanə... Həmin zərif məxluqların ümumiləşmiş nümayəndəsi müəllifin qəlbdən-candan çox istədiyi Bəstəboydur.

Müəllif bu günün kişilərinə də silsilə şəkilli şeirlər həsr edib (Mirlətifə, Müqtədirə, Mayisə, Həsənə, Səmədə, Habilə, Mirzəyə...). Müəllif mütəfəkkirtərin, klassik bəstəkarların da haqqında məhəbbət dolu beytlər, bəndlər düzüb-qoşub. Görün onlar kimlərdir: Nizami, Füzuli, Nəsimi, Seyid Əzim, A.Səhhət, Ə.Vahid, B.Vahabzadə, Ə.Kərİm, R.Rza, Xəyyam, Rudəki...

İmkanlı eloğlusu Gülağa Tənhaya, parapsixoloq İlham Səfərliyə aid misralar da xoş təsir bağışlayır. Qızı Rəvanəyə aid şeirində deyir: "Yanvarı döndərdin maya". Nakam taleli Tahirə xanım barədə adamı yaxıb-yandıran fəryada fikir verin: "Bətnində apardı övlad payını" - o dünyaya.

Topluda Mirhəmidin zəmanədən şikayəti səslənir:

Eşq, məhəbbət unudulub,
Cəngavər dönüb qul olub;
Hər şeyin başı pul olub...

"Qəm tərənnəmçüsü"nün yazıları sırasında inam, ümid parıltılı, torpaq və yurd yeri ilə bağlı qoşmalar oxucunu ruhlandırır. Xoş haldır ki, hərdən Bətəboyla əiaqədar lirik parçalarda o, təbiət və gözəlliklər üçün də körpü qurur. Misallar:

...Bülbülün məskəni - gülün budağı;
...Eşqimin anasıdır Vətən sevgisi;
...Dərələri dağ qoparan selliyəm;
...Artar çaylarda sular
Ruhum çimər, durular
A gülüm, sən güləndə!

Mən musiqi aləmində uğurlar qazanmış Mirhəmid Qənizadənin həyatının yayından payıza doğru uzanan yolda bədii yaradıcılıq sahəsində də irəliləyişlərə nail olacağına inanıram!

OQTAY RZA
"Rəsul Rza", "Müşfiq",
"Qızıl qələm" və "Araz"
mükafatları laureatı, dosent,
AYB-nin üzvü.
18.06.2009.
Bakınm Günəşli qalası.

MÜƏLLİFDƏN

Bismillahir-rəhmanir-rəhim

Hə, əziz oxucu! Şükürlər olsun Yaradana ki, tale bizə də güldü. Sizinlə mənim üz-üzə oturub dərdləşməyə, diqqət kəsməyə fürsət yaratdı. Bu günü mən beş ilə yaxındır ki, gözləyirəm. Gözləyirdim ki, mənim də şeirlər kitabımın çapdan çıxmağına maddi cəhətdən kömək edən tapılar və şeirlərim də, necə deyərlər, xalqın malı olar. Amma nə etməli ki, zəmanəmizdə və cəmiyyətimizdə əsl istedadlara, xüsusən qeyri-adi istedadlara əl tutan, ona yardım edən, mən maddi yardımı nəzərdə tuturam, demək olar ki, yoxdur. Amma nə yaxşı ki, ekran, efir vardır. Maşallah olsun ki, imkanlılarımız özlərini ay reklam elətdirirlər ay! Qəribə mənzərədir: reklamda sevinən, gülən, xeyirxahlığı özünün müqəddəs işi hesab edənləri onlara yardım üçün yaxınlaşanda - hər halda öz rastlaşdıqlarım məni bu qənaətə gəlməyə məcbur edir - onları ağlayan görmüşəm. Nə isə...

Vəziyyət elə gətirmişdi ki, bu kttabın işıq üzü görməsi sanki möcüzə nəticəsində baş verə bilərdi. Allaha şükürlər olsun! Belə bir möcüzə baş verdi və mənim kitabımın çap xərcini öz üzərinə götürən iki eloğlu tapıldı! Belə bir atalar sözü var: "Bəy verən atın dişini saymazlar". Onlar mənım sönməkdə olan ümid çırağımı sanki nurlandırdılar. Onu da qeyd edim ki, mənim ikinci şeirlər kitabım hazırdır və artıq nəşriyyatdadır. Maddi cəhətdən imkanlı qardaşlardan kömək edən tapılsa, o kitab da tezliklə işıq üzü görər. İkinci şeirlər kitabım da məzmun və forma baxımından birinci kitabımın sanki davamıdır.

Bu ilin əvvəlində məni təzə tanışlardan biri öz cəmiyyətlərinin toplantısına dəvət etmişdi, O yoldaş orada məni iki şəxslə tanış etdi. Bunlardan biri, ilk tanışlıqdan adamın məhəbbət və rəğbətini qazanan, xeyirxah insan, iş adamı Vəli Adil oğlu Həsənov, o biri şəxs

isə "Mütərcim" nəşriyyatının direktoru, professor Telman Vəlixanlı idi. O görüşdə onlar mənim bir neçə şeirimi dinlədikdən sonra bu qərara gəldilər ki, birləşərək şeirlər kitabımı çap etdirsinlər. Və sağ olsunlar. Sözlərinin üstündə durdular da. Mən onların hər ikisinə minnətdarhğımı və dərin təşəkkürümü bildirirəm. Allah onlardan razı olsun, daim onlara kömək olsun!

Mən burada məni Vəli və Telman müəllimlə tanış edən şəxsi xüsusi qeyd etmək istərdim. Bu, Yardımlı Xeyriyyə Cəmiyyətinin sədri, ruhu, qəlbi yaxşılıqlara köklənmiş Elman Eldaroğludur. Atalar gözəl deyib: "Vur!" demək vurmaqdan irəlidir". Mən Elman müəllimə dərin təşəkkürümü və minnətdarhğımı bildirirəm.

Bir şeyi də qeyd etməsəm olmaz. Axı məni Elmanla tanış edən, onun haqqında mənə məlumat verən, onunla tanış olmağı mənə məsləhət görən, ürəyimə yaxın digər bir şəxs də var - atalarımızın adları da eynidir - Mirmahmud Mirəli oğlu Fəttayev - Mirmahmud Mirəlioğlu - Azərbaycan Klassik Xalq Cəbhəsi Partiyasının sədri. Mən ona da öz minnətdarlığımı biidirirəm.

Əziz oxucu! İlk şeiri yazandan sonra mənimlə maraqlananlar, mənə ümid verənlər, nəhayət, kitabımı səbirsizliklə gözləyənlər arasında artıq dünyasını dəyişənlər də var, mən onları xatırlamaya bilmərəm. Mənim xüsusi hörmətimi qazanan alimlər: ADPU-nun professoru, filoloq Xeyrulla Məmmədov və AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun elmi işçisi, ərəbşünas Əmirşah Babaşah oğlu Əmirəhmədovdur.

Onların mənə qayğısı və hörməti, verdikləri ümidlər, şeirlərimdəki tapıntıları ürəkdolusu ilə xüsusi qeyd etmələri məndə şeiriyyətə daha ciddi yanaşmaq, sözün ağırlığının, çəkisinin maddilikdən fərqli olaraq, hətta çəkisizlik şəraitində də itməməsini anlatdı. Allah hər ikisinə rəhmət eləsin!

Boynumda haqları olan və bu gün də görüşə bildiyim, hal-əhval tutduğum bəzi insanlar barəsində də bir neçə söz deməliyəm.

2005-ci ilin yanvarında mənim ilk məhəbbət şeirlərimin toplusu "Xüsusi buraxılış" adı altında çıxarkən, - mən buna görə "Yeni ha-

kimiyyət" qəzetinin o vaxtkı baş redaktoru, "İti qələm" Respublika ədəbi birliyinin üzvü Vüqar Vaqifoğluna öz minnətdarlığımı bildirirəm, - mənim haqqımda "Ön söz"lə çıxış edən AMEA-nın müxbir üzvü, ADPU-nun ümumi tarix kafedrasının müdiri, professor Vəli Əliyevə və onun qardaşı, həmin universitetin prorektoru, professor Vilayət Əliyevə, həmin universitetdə kafedra müdiri, filologiya elmləri doktoru, professor Himalay Qasımova, özümə və istedadıma xüsusi hörmət bəsləyən, tarix fakültəsinin dekan müavini, dosent Nazir Əsədova, ixtisasdəyişmə fakültəsinin dekanı, dosent Mehralı Ömərova, filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Buludxan Xəlilova, psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor Əbdül Əlizadəyə; AMEA-nın işçilərindən: yazıçı Əlibala Hacızadəyə, fəlsəfə elmləri namizədi, filosof Hacı Mirmüstəqil Ağayevə, filologiya elmləri namizədi, "Məhsəti" ədəbi birliyinin sədri, "Məhsəti" ədəbi jurnalının baş redaktoru, şairə Fəridə xanım Ləmana öz dərin təşəkkürümü və minnətdarlığımı bildirməyi özümə borc bilirəm.

2005-ci il fevralın 1-də AZTV 2-də "Xəzərlə üz-üzə" proqramında mənim barəmdə yarım saatdan artıq veriliş getdi. Bu veriliş mənim geniş xalq kütləsinə təqdimatımda və təbliğatımda böyük addım idi. Mən bu xeyirxah işi görənlərə: vasitəçi-səbəbkar, indi "İctimai' televiziya"nın Analitik Departamentinin rəhbəri Anar Yusifoğluya və indi "Space" telekanalında "Xəbərlər" proqramının baş redaktoru Elman Gədikliyə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Lakin bir şəxs də var ki, onu xüsusi qeyd etməliyəm. O, xalqımızın sevimli şairlərindən olan Oqtay Rzadır. Mən onun gözəl şair olduğunu bilirdim, ancaq bu qədər nəcib, səmimi, qayğıkeş insan olduğunu bilmirdim. Onun mənə hörmət və məhəbbəti, atalıq qayğısı heç vaxt unudulası deyil. Bu qayğının məntiqi və əməli nəticəsidir ki, Oqtay müəllim mənim bu kitabımın həm redaktoru, həm də "Ön söz"ün müəllifidir. Onun mənə ilk tövsiyəsini unuda bilmirəm: "Seyyid, səndə güclü istedad işartıları var, sən öz üzərində çoxlu ça-

lışmalısan, klassiklərdən bu yana dünya və Azərbaycan ədəbiyyatından çoxlu şeirlər oxumalısan ki, sən bu işartiları birləşdirib nura çevirə biləsən. Bax onda əsl şair olacaqsan. Mən buna inanıram". Oqtay müəllimə dönə-dönə minnətdaram.

Onu da qeyd edim ki, bu kitabın adı 130-cu səhifədə yerləşən "Gəzir" rədifli şeirin 4-cü bəndinin 3-cü misrasından götürülmüşdür:

...Yara "cehiz" dərd, qəm seçib,
Dərd mən boyda: ölçüb-biçib.
Qəm könlümə gəlin köçüb:
Yanğısı neylərdə gəzir.

Yəni, kitabın ümumi poetik pafosu öz konkret ifadəsini bü şeirdə tapıb.

Əziz oxucu, sonda bunu da qeyd edim ki, mən bütün şeirlərimi və eləcə də bu kitabı cəmiyyətimizin vuran qəlbi, sevən qəlbi və qaynar qəlbi olan gənclərə həsr etmişəm. Axı sevginin yurd yeri əsasən gənclərin qəlbidir. Qoy bu kitabım onlara məndən bir hədiyyə olsun. Arzum budur ki, gənclər və ümumilikdə cəmiyyət eşq, sevgi və məhəbbət ruhu ilə tərbiyələnsin və onların inkişafında bu ülvi və nəcib hisslər mühüm rol oynasın. O zaman onlar ucalar, aliləşər, ülviləşər. Bu kitab elə bir dövrdə sizə ərməğan olunur ki, indi cəmiyyyətdə bu ali və ülvi hisslər sanki adiləşir, alazılaşır və göydən yerə endirilir.

Əlbəttə, səhvsiz insan olmadığı kimi, səhvsiz və ya zəif məqamlarsız incəsənət və ədəbi əsərlər də yoxdur. Ona görə də əgər şeirlərimdə qüsur və çatışmazlıqlar hiss etsəniz, Sizin iradlarınıza və tövsiyələrinizə bəri başdan öz minnətdarlığımı bildirirəm. Növbəti görüşlərədək! Allah amanında!

Əssəlamü əleyküm və rəhmətüllahi və bərəkatühü.

Mirhəmid Qənizadə
24.08.2009

ÖMRÜM BİR MƏHƏBBƏT... DÖNÜB NAĞILA

KÖÇMƏYƏCƏKDİR

"Unutma ki, dünya fani,
Verən Allah alır canı.
Bən nasıl unuturam səni
Can bədəndən çıxmayınca?!"

(Böyiik Türk müğənnisi
Barış Mançonun ifa etdiyi mahnıdan)

Sənsiz bu dünyanı neynirəm, gülüm,
Qəlbim ki, açılıb-gülməyəcəkdir.
Hicranında ağlar qalan gözümü,
Bir kimsə yanaşıb silməyəcəkdir.

Bir dərdə düşmüşəm - çarəsi çətin:
Dərdim, möhnətimdir vüsal həsrətin.
Mələyə bənzəyən sənin surətin
Bir an da önümdən getməyəcəkdir.

Görən, bu sevgidə nədir günahım:
Niyə ayrı düşüb məndən pənahım?
Elə hey "yar" deyib, çəkdiyim ahım
Nə bitib, nə sona yetməyəcəkdir.

Getmisən, kökümdən sınıb budağım,
Qarışar torpağa sinədən dağım.
Qönçə dodağına həsrət dodağım,
Bir gülü, çiçəyi öpməyəcəkdir.

Yanıb-qovrulmaqdan qəlb dönüb külə,
Mənsiz şux geyinib bürünmə tülə.
Sənsiz ruhum dönüb şeyda bülbülə,
Bir də çəmənzardə ötməyəcəkdir.

Sən mənim ağzımda şirin dilimsən,
Ətirli bağçamda reyhan gülümsən,
Xatirəyə dönmüş ayım, ilimsən,
Kimsə yaddaşımdan silməyəcəkdir.

Dinlə Mirhəmidi, sözünə inan:
Dünya məhəbbətsiz qaranlıq zindan.
Olmasa eşqində Məcnuni-dövran,
Söz verib həyatdan köçməyəcəkdir.

15 noyabr 1980

MƏHƏBBƏT

Məhəbbət kecmişi və gələcəyi tamamlayan yeganə ehtirasdır. Hörmət onun keşikçisidir.
Balzak

Bağrım başı bir atəşlə dağlıdır,
Ən ülvi hisslərə kandı Məhəbbət.
Nifrətim də məhəbbətə bağlıdır,
Xilqətə şöhrətdi, şandı Məhəbbət.

Məhəbbətdən yaranıbdır kainat -
Məhəbbətsiz nə yaranış, nə həyat?
Damarda qan, dodaqda abi-həyat,
Qalibi-biruhda candı Məhəbbət.

Ala gözlər - məhəbbətin aynası,
Kim boylansa, alovlanıb yanası,
Yavaş süzdür, Yaradanı danası,
Yaradanı yarda qandı Məhəbbət.

Yanaqların ilk baharın çöhrəsi,
Qəlb evimə işıq saçır şöləsi.
Məlhəmimdir ləblərinin busəsi,
Xəstə cana bir dərmandı Məhəbbət.

Sinəm üstü ayaqların yeridir,
Qəlb evimi hey qorxudur, kiridir,
Hər addımda həm öldürür, dirildir,
Özünü bir Tanrı sandı Məhəbbət.

20 noyabr 2004

GÖZÜNƏ

Gözdən hansı qəlbə dağlar çəkilməz,
Gözün dediyini dil deyə bilməz!
B.Vahabzadə

Oğrun-oğrun süzüləndə,
El bütün heyran gözünə.
Dəli könlüm şurə gəlib,
Söz qoşur ceyran gözünə.

Bu nə işvə, bu nə nazdı,
Gözlərində qış da yazdı.
Könlüm xumarlanıb, sazdı,
Gəlibdir mehman gözünə.

Göz - camalın qoşa xalı,
Qalmayıb aşiqin halı.
Süzülüb ləblərin balı,
Dolubdur mərcan gözünə.

Sən Əslisən, mən də Kərəm,
Dərdindən bağlaram vərəm,
Ulduz olub zillənərəm,
Oxuram fərman gözünə.

Qara gözün qəlbim əzir,
Nə yorulur, nə də bezir.
Olmaya, qurbanlıq gəzir?
Mirhəmid qurban gözünə.

20 noyabr 2004

GÖZLƏRİMİ HƏSRƏT QOYMA GÖZÜNƏ

Nə müddətdir məndən ayrı düşmüsən,
Gözlərimi həsrət qoyma gözünə.
"Zülm etməkdə" yetişmisən, bişmisən,
Mərhəmət et, baxma əğyar sözünə,
Gözlərimi həsrət qoyma gözünə.

Dəli könlüm gözlərinə vuruldu:
Qapısında sail oldu, qul oldu,
Atəşindən alovlandı, kül oldu -
Qızınırsan yanar qəlbin közünə,
Gözlərimi həsrət qoyma gözünə.

Sən gedəni itirmişəm özümü:
Dəyişmişəm söhbətimi, sözümü,
Yığ yollardan bu nigaran gözümü -
Qoy baş qoysun sənin ayaq izinə,
Gözlərimi həsrət qoyma gözünə.

Qara gözlər neçə qulun ağası.
Bir baxışla yandırası, yaxası.
Mənim eşqim ilk məhəbbət çağası:
Bələmisən yanar hicran bezinə,
Gözlərimi həsrət qoyma gözünə.

Ayrı düşdük, ruhum, canım saraldı,
Gözlərimin nuru getdi, qaraldı.
Yar almayan yarı axır yer aldı,
Can üstdəyəm, al başımı dizinə,
Gözlərimi həsrət qoyma gözünə.

21 noyabr 2004

SÖZLƏ DEYİLƏSİ DEYİL

Qoymusan hüsnünə həsrət, ay gözü qarə, məni,
Etmisən eşqin ucundan necə avarə məni.
Bisavad (E1 şairi)

Zülfün salıb elə dərdə,
Sözlə deyiləsi deyil.
Cılızlaşıb qəm, kədər də:
Gözə dəyiləsi deyil,
Sözlə deyiləsi deyil.

Qurban zülfün qarasına -
Yar dərdinin çarasına,
Bax qəlbimin yarasına:
Salıb zülfə yenə meyl,
Sözlə deyiləsi deyil.

Gül taxmısan şanasına,
Naz qatmısan hənasına,
Vur canıma bəla, sına:
Canım dərdə elə qail,
Sözlə deyiləsi deyil.

Hörüyün bənzər ilana,
Nola, boynuma dolana.
İnandıq, uyduq yalana,
Yıxdı bizi fitnə-feil,
Sözlə deyiləsi deyil.

Zülfünmü gözündən qara,
Gözünmü zülfündən qara.
Mirhəmid qalıb avara:
Gəzir düzdə veyil-veyıl,
Sözlə deyiləsı deyıl.

24 noyabr

EH, SƏNİNÇÜN SEVGİ NƏDİR, EŞQ NƏDİR?

Eşq hər şeyin səbəbi, başlanğıcı və sonudur!
Jan La Korder

Eşq mülkündə hökmranlıq edirsən,
Bilirsənmi sevgi nədir, eşq nədir?
Bir baxışla qətlə fərman verirsən,
Bilirsənmi sevgi nədir, eşq nədir?
Eh, sənինçün sevgi nədir, eşq nədir?

Aşiq olan yaranıbdır dərd çəkə,
Eşq bağında möhnət, kədər, dərd əkə.
Dərdim, ünüm gedə çata əflakə:
Bağrım başı dərddən deşmə-deşmədir,
Eh, sənինçün sevgi nədir, eşq nədir?

Könül görüb, aşiq olub gözünə,
Məcnun kimi düşüb eşqin düzünə.
Sənինçün göz dönüb nazın közünə,
Mənim üçün - Abi Zəm-zəm çeşmədir,
Eh, sənինçün sevgi nədir, eşq nədir?

Əyri qaşlar aldı başdan ağlımı,
Məcnun məgər məndən artıq dağlımı?
Kipriyinlə oxlamısan bağrımı,
Çox gözlətmə, at oxların, məşq nədir?
Eh, sənինçün sevgi nədir, eşq nədir?

Hər sözünlə Mirhəmidə can gəlir,
Baxışınla qəmli könlüm şənlənir,

Gülüşünlə ruhum, canım dinlənir,
Al ləbinə dodaqlarım təşnədir,
Bəlkə onda anlayasan eşq nədir,
Eh, sənincün sevgi nədir, eşq nədir?

24 noyabr 2004

VÜSAL NƏGMƏSİ

Əfsusi ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim, ömrüm necə gəldi, necə getdi.
Ağabəyim Ağa Ağaxanım

Görüşdük. Mehriban dindirdi dildar,
Dəvətim yarıma, deyən, xoş gəlib.
Ala gözlərini süzdürdü nigar,
Baxışdan könlümə bir təlaş gəlib.

Min naz ilə yüz ölçüb, bir biçibdir:
Özünə yurd - yar könlünü seçibdir,
Eşq badəsin lap təzəcə içibdir:
Məhəbbət məstiydi, nə sərxoş gəlib!

Qədəmbaşı küsüb məni ağlatdı,
Gözün süzüb dərdlərimi çağlatdı.
Yaralarım ləblərilə sağaltdı:
Xəstə aşiq loğmanına tuş gəlib.

Gəlmişdi yanıma təzə dünyayla,
Könül, meydanına Məcnun harayla.
Yar dedi: - sözləri sanki bir layla -
- Bu gözəl büsata nəğmə qoş, gəlib!

Mirhəmidəm, məhəbbətdən yaşım var,
Ürəyimdə "Həsrət" adlı daşım var,
Yarıma qurbanlıq bircə... başım var,
Deməsin: "Yanıma əliboş gəlib!"

06 sükabr 2004

HƏSRƏTDƏN GÖZLƏRİM QABAR-QABARDIR

(Ekranda, efirdə ifa etdiyim"Sudan gələn sürməli qız" xalq mahnısının ilk konsert ifasından 30 il 30 gün 30 dəqiqə keçir...)

Sudan gələn bir gözələ vuruldum,
Dedim: "Sevin, könül, əcəb nigardır!"
Kuzədən su verdi - içdim, duruldum,
Əhvalım üzümdən indi də cardır.
Həsrətdən gözlərim qabar-qabardır.

İpək kimi bəzənmişdi kuzəsi,
Canım aldı ala gözün sürməsi,
Elə yandırdı ki, ləbin busəsi,
Atəşdən dodağım cadar-cadardır,
Həsrətdən gözlərim qabar-qabardır.

Öpüb, kuzəsini əlindən allam,
Naz ilə qolumu boynuna sallam,
Dedim: "Gəlsən, səni mən özüm allam!"
- "Gələrəm!"- dediyi neçə bahardır,
Həsrətdən gözlərim qabar-qabardır.

Nigaran gözlərim dikilib yola;
"Bəlkə, yar yolunu bu yandan sala".
Necə vurnuxubsa hey sağa, sola-
Qarşısında dağlar, daşlar hamardır,
Həsrətdən gözlərim qabar-qabardır.

Mirhəmid eşqində mətindən mətin:
Onunla tən gəlmək Məcnuna çətin.
O qədər çəkibdir yarın həsrətin,
Qırx altı yaşında... bir ixtiyardır,
Həsrətdən gözlərim qabar-qabardır.

06 dekabr 2004

BU QIZIN

Yenə nazla gəlib durub qarşımda,
Necə alım qadasını bu qızın?
Nə sevdadır, ağıl qoymur başımda,
Əcəb gördüm "əta"sını bu qızın,
Necə alım qadasını bu qızın?

Göz vurulub-ürək düşüb cətinə,
Dil bacarmır nə danışa, nə dinə.
Gözəllikdə çatıb Leyli həddinə,
Eşitmişəm sədasını bu qızın,
Necə alım qadasını bu qızın?

Sanki qəlbin atəşini duymayır,
Eşqim sirrin el-obaya yaymayır,
Məndən özgə bir adamı saymayır:
Çəkmək olmur ədasını bu qızın,
Necə alım qadasını bu qızın?

Nura dönüb qəlbim çıraq eyləsin,
Məbadə özünü qıraq eyləsin.
Allah özü məndən iraq eyləsin,
Evlər yıxan xətasını bu qızın,
Necə alım qadasını bu qızın?

Min naz ilə alır mənim canımı,
Dəyişdirir damarımda qanımı.
Bir gün edəcəyəm evin xanımı -
Qoxlayacam "buta"sını bu qızın,
Mən alacam qadasını bu qızın,
Mən... alacam qadasını bu qızın!

07 dükabr 2004

BU DÜNYANIN AY BƏXTƏVƏR GÖZƏLİ!

Sallanıban yenə nazla gəlirsən,
Bu dünyanın ay bəxtəvər gözəli!
Barı mənim dərdlərimi bilirsən?
Bir sən bilsən, vallah, dərdlər düzəli,
Bu dünyanın ay bəxtəvər gözəli!

Yandırırsan - heç saymırsan yananı,
Yana-yana səni canı sananı,
Yandırmaqda səntək alışqan hanı?
- Baxışınla yanmış canlar təzəli,
Bu dünyanın ay bəxtəvər gözəli!

Gülüşünlə canımı nuş edirsən,
Qanad verib ruhumu quş edirsən,
Danışdıqca əqli bihuş edirsən,
İltifatın şirin, sözün məzəli.
Bu dünyanın ay bəxtəvər gözəli!

Rəhm etməsən, sevən qəlbdə yaz olmaz,
Gözlər nurdan düşər, könül saz olmaz.
Belə işvə olmaz, belə naz olmaz -
İşvənin özülü, nazın təməli,
Bu dünyanın ay bəxtəvər gözəli!

Mirhəmidəm, səni özüm bilirəm,
Həsrətindən ağlar gözüm silirəm.
Getdi taqət, bitdi dözüm - ölürəm:
Yaz məzar daşıma matəm qəzəli,
Bu dünyanın ay bəxtəvər gözəli!

08 dekabr 2004

SƏN ALLAH, SƏN MƏNƏ ÖZ ADIMI DE!

Gəl mənə "Mirhəmid müəllim" demə,
Sən Allah, sən mənə öz adımı de!
Yoxsa ki, salarsan matəmə, qəmə,
Sən Allah, sən mənə öz adımı de!

Axı, müəllim sən - mən tələbəyəm,
Sənə yiyələnsəm - mən qələbəyəm.
"Mirhəmid" söyləmək çətindir bəyəm?
Sən Allah, sən mənə öz adımı de!

Sən mənə müəllim Əzəl də oldun:
Onda Yer yox idi, Göylərdə oldun.
Sonra yarandı Yer-mənçün doğuldun;
Sən Allah, sən mənə öz adımı de!

Yanağı al da sən, bəstəboy da sən,
Nə olar: "Ləbimdən gəl bir doy!"- desən.
Mən bir körpə boyda-dünya boyda sən,
Sən Allah, sən mənə öz adımı de!

Nurundan utanır Günəş də, Ay da,
Mənə ki, salmırsan nurun, nə fayda?
Gözəldə işvə, naz əzəldən qayda,
Sən Allah, sən mənə öz adımı de!

Mirhəmidəm, atdın eşqin selinə,
Barı bir yol adım gəlsin dilinə.
Anam həsrət sənin kimi gəlinə,
Sən Allah, sən mənə öz adımı de!

10 dekabr 2004

GÖZLƏRİN

İcazə ver, baxım, ey gül, o qarə gözlərinə,
Vurulmuşam, nə edim, aşikarə gözlərinə
Ə.Vahid

Necə şirin-şirin canımı alır,
Hərdən süzüləndə ala gözlərin.
Sənin meydanına bir ürək qalır,
Qorxuram onu da çala gözlərin.

Süzür məhəbbətin asimanında,
Alır aşiqinin din, imanın da.
Olum gözmuncuğu, qalım yanında,
Qoy gəlməsin heç zavala gözlərin.

Aşiqə can verib, neçə can çəkib,
Salıb bəlalara, özün yan çəkib,
Eşqində o qədər dərd, hicran çəkib,
Həsrət qalıb ilk vüsala gözlərin.

Könül tab gətirməz bir belə naza,
Dərdlilər dərdimdən kitablar yaza.
Darayıb tellərin hey qoşa saza,
Sevdiyi havanı çala gözlərin.

Mirhəmid vəslinə edibdir nəzir,
And içib, yolunda durub müntəzir.
Eşitdim özünə təzə yurd gəzir,
Köçüb ürəyimdə qala gözlərin,
Könlümü əbədi ala gözlərin.

11 dekabr 2004

GÜLÜM, BU ŞEİRLƏR SƏNİNDİR AXI

...Biz bir ruhuz iki bədəndə,
Bizdə ikilik nişanı yoxdur,
Hər birinin özgə canı yoxdur.
Sən sanma ki, oldur ol, mənəm mən,
Bir can ilə zindədir iki tən.
Xürrəm oluram, o olsa xürrəm,
Qəm yetsə ona, yetər mənə qəm.
M.FüzuIi. "Leyli və Məcnun"əsərindən

O gün götürmədin şeirlərimi,
Gülüm, bu şeirlər sənindir axı.
Sənə həsr etmişəm əsərlərimi,
Gülüm, bu şeirlər sənindir axı.

Sən bir minarəsən - Azanı mənəm,
Sən bir Haqq-Ölçüsü, Mizanı mənəm.
Sözlər səninkidir, yazanı mənəm,
Gülüm, bu şeirlər sənindir axı.

Hara gedirəmsə qarşımda sənsən,
Ömrüm də, günüm də, yaşım da sənsən.
Əlimdə qələmim, başımda sənsən,
Gülüm, bu şeirlər sənindir axı.

Şeirimin bəndinin sanı səndədir,
Sözümün damarı, qanı səndədir,
Təbimin gövhəri, kanı səndədir,
Gülüm, bu şeirlər sənindir axı.

Boylansan şerimə sözün görərsən,
Bağrımı yandıran közün görərsən,
Qələmim vəsf edən gözün görərsən,
Gülüm, bu şeirlər sənindir axı.

Cansız, ruhsuz olan qəfəs sənindir,
Məndə şeirə maraq, həvəs sənindir,
Şeirimə can verən nəfəs sənindir,
Gülüm, bu şeirlər sənindir axı.

Mübarəkdir, xoş arzuna yetmisən:
Şeirə dönüb ürəyimdə bitmisən,
Mirhəmidi özün şair etmisən,
Gülüm, bu şeirlər sənindir axı.

11 dekabr 2004

CƏMİ OTUZ ADDIM...

Dilbəra, mən səndən ayrı təndə canı neynərəm,
Malü-mülkü, təxtü-tacı, xanimanı neynərəm.
Nəsimi

Cəmi otuz addım yeridik birbaş,
Bundan artığını rəva bilmədin.
Sənin sinəndəki ürəkdir, ya daş?
Yaralı könlümə dəva bilmədin.

İbadət əhlinin öz qaydası var:
Dili də, qəlbi də doğru danışar.
Dedin: "Başqasını gözləyirəm mən",
Söylə: yalan demək sənə yaraşar?

Sordum:"Kimdir dönən ilham pərimə?"
Söylədin: "Bilmirəm o qızın adın".
Sənə ayna olan şeirlərimə,
Boylanıb özünü sən tanımadın?

İzlədim mən səni axıra kimi:
Hara gedirdinsə, mən orda vardım.
Mən səni etmişdim göylər hakimi,
Sənsə... zirzəmiyə məni apardın.

Əyləşib marşrut avtobusuna,
Sən getdin, elə bil getdi Vətənim.
Çatıb ağuşunda öz arzusuna,
Ruhum sənlə getdi, qaldı bədənim.

Bülbül oxuyarmı gülsüz-çəmənsiz?
Çağlayan ürəyim həvəssiz qalıb.
Bil ki, bu dünyada Mirhəmid sənsiz,
Quruca bədəndir nəfəssiz qalıb.

dekabr 2004

NƏ OLAR, SƏN MƏNİM GÖZLƏRİMƏ BAX!

Yaşasam yüz il də, milyon da, min də,
Həyatım bitəcək həmin o gündə.
Sənin gözlərinin dərinliyində,
Boğulmaq istərəm, batmaq istərəm.

B.Vahabzadə

Gülüm, gözlərini çevirmə yana,
Nə olar, sən mənim gözlərimə bax!
Qoysana, ürəyim gözdən odlana,
Nə olar, sən mənim gözlərimə bax!

Eşqin pak odunu gözündə gördüm,
Həyatın dadını gözündə gördüm,
Ömür-gün qadını gözündə gördüm,
Nə olar, sən mənim gözlərimə bax!

Səndən ilham alır şeirim, sənətim,
Sənsən könül tacım, qəlb səltənətim.
Gözündə yurd salmış ilk məhəbbətim,
Nə olar, sən mənim gözlərimə bax!

Gözün-gül çeşməsi, göz yaşın-gülab,
Gözündə yazılıb eşqimə cavab.
Gözlərə baxmağın özü bir savab,
Nə olar, sən mənim gözlərimə bax!

Mirhəmid şeirindən sənə don biçsin,
Sənlə eşq şərbətin camını içsin.
İstər ki, biryolluq gözünə köçsün,
Nə olar, sən mənim gözlərimə bax!

14 dekabr 2004

SEVGİ MƏGƏR QADAĞADIR?

“Aşiqə yoxdur qadağa,
Canım canına sadağa".
El deyimi

Gözüm qara gözə düşüb,
Sevgi məgər qadağadır?
Bağrım yanar közə düşüb:
Sinəm başı köz dağıdır,
Sevgi məgər qadağadır?

Dəli etdi Qeysi Leyli,
Qeys saldı Leyliyə meyli,
Qəlbdə Leylidən gileyli,
Üzü “Eşq” adlı dağadır,
Sevgi məgər qadağadır?

Gül bülbülə edir nazı,
Bülbülün coşur avazı.
Gülün eşqdən yanar üzü,
Bülbül qonan budağadır,
Sevgi məgər qadağadır?ə

“Əsli-Kərəm” - şah dastanım,
Məhəbbət - damarda qanım.
Eşqdən alovlanan canım,
Yar yolunda sadağadır,
Sevgi məgər qadağadır?

Göz yaranıb gözə möhtac,
Ürək - şirin sözə möhtac,

Zülmətəm Ulduza möhtac:
Bənzəri bir çırağadır,
Sevgi məgər qadağadır?

Eşq - camalın gül çöhrəsi,
Eşq - gözəllərin işvəsi,
Eşq - İlahinin töhfəsi,
Təkcə Ondan aşağıdır,
Sevgi məgər qadağadır?

Mirhəmid çatıb mətləbə:
Gedir "Eşq" adlı məktəbə.
Yar sinəsi ona Kəbə,
Buxağı - Mina dağıdır,
Sevgi məgər qadağadır?

16 dekabr 2004

ÖMRÜM MƏHƏBBƏT NAĞILI

“Həyatda heç nəyim yoxdur,
gümanım yalnız məliəbbətimdir! ”
Mirhəmir Qənizadə

46 yaş gəlib özün yetirdi,
Ömrümdə illərin yağışı qalıb.
Ömür kitabına hər il sətirdi,
Köçüb vərəqlərə axışı qalıb.

Ömrüm uşaqlıqdan nə tez ötüşdü,
“Gənclik” adlı bir diyara yetişdi:
Gözüm gözəllərdən birinə düşdü,
Arxamca yüzünün baxışı qalıb.

Rəzil dünya sevgimizə çəpərdi,
Məhəbbətim tənələrə sipərdi.
O qız məni... röyalarda öpərdi:
Ləbimdə ləbinin naxışı qalıb.

İnstitut... tələbəlik illəri...
Yenə röya: sinəmdə yar telləri.
Alver edib, töküb şirin dilləri,
Hər gecə canımı alışı qalıb.

Sonra müəllimlik, ailə həyatı,
Dörd övlad - ömrümə şirin bayatı.
Hər biri taledə nurdu, ziyadı,
Qəlbimə günəş tək doluşu qalıb.

Məhəbbətim üstün gəldi ağıla,
Məhəbbətsiz dünya gərək dağıla.
Ömrüm bir məhəbbət - dönüb nağıla:
Başımın altında balışı qalıb.

21 dekabr 2004

DÜŞÜB

Qaytar eşq havası çalan günləri,
Ağlımı başımdan alan günləri.
Ömürdən saymıram qalan günləri,
Oduna yandığım gündən savayı.

Rasim Kərimli

Taledən ömrümə gün bağışlamaq,
Həftənin iki gün sayına düşüb.
Qaranlıq qəlbimi nura boyamaq,
Mənim Ulduzumun payına düşüb.

Artıq alışmışam mən bu "sevda"ya,
Mütiyəm taledən gələn qaydaya:
Həftədə iki gün "gedirəm toya",
Beşcə gün sızlayan neyimə düşüb.

Ömrüm iki gündür: birisi - bizdə,
Birisi- qonşuda, ya da dəhlizdə.
Nə yarda rəhm var, nə dözüm bizdə -
Kərəmlik libası boyuma düşüb.

Töhfəm bir vüsaldır ikicə günlük,
Beş günüm - səhraya, düzə sürgünlük.
Məhəbbət yolunda mənə Məcnunluq,
Leylilik - Bəstəboy tayıma düşüb.

Yar çarə qılmayır dərdimi bilib,
Can belə ömürdən zinhara gəlib.
Bir gün eşidəcək Mirhəmid ölüb:
Axışıb el-oba vayına düşüb.

30 dekabr 2004

QIZ DEYİL, ALLAHIN BƏLASIDIR BU

Bu qız nə qəşəngdir, ayAllah,
Sanki bir mələkdir, ay Allah.
Bağların şirin meyvəsidir bu,
Ətirli çiçəkdir, ayAllah.

(Baloğlan Əşrəfovun ifa etdiyi mahnıdan)

Vaxtsız saçlarıma salıbdır dəni,
Qız deyil, Allahın bəlasıdır bu.
Bir güldür, bəzəyib çölü-çəməni,
Dağların döşünün lalasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Gəlib yetişibdir sevda yaşına,
Könlüm aşiq olub qələm qaşına.
Gözəllik tacını qoyub başına,
Aşiqin yüz oda salasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Naz ilə zülfünü salır bir yana,
Oğul gərək zülmə dözə, dayana:
Alır canın, baxmır ahıl, cavana,
Hələ neçə canlar alasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Leylidən, Əslidən artıqdır nazı,
Ruh oxşayır məlahətli avazı.

Basıb sinəsinə sədəfli sazı,
Məhəbbət havası çalasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Şəkər qatıb söhbətinə, sözünə,
Salıb aşiqlərin eşqin düzünə.
Gözü bənzər ürkək ceyran gözünə,
Özüsə maralın balasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Ağ duvağa bürünmüş bir gəlindi, -
Sevən aşiqlərin halı bilindi. -
Göz görməyir, tutulubdur dil indi,
Dərdli könüllərin nalasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Bir baxışla alır başdan ağılı,
Süzgün gözdən bağrım başı dağılı.
Mənim şerim ona bir eşq nağılı:
Dinləyib, xəyala dalasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu.

Sanır Mirhəmidi özünə aşiq,
Görcək məni, verir telə yaraşıq.
Olub məhəbbətdən ömrümə işıq,
Nurunu qəlbimə salasıdır bu,
Qız deyil, Allahın bəlasıdır bu,
Köçüb ürəyimdə qalasıdır bu.

01 yanvar 2005

BİLMİRƏM

Mən necə sevməyim böylə gözəli:
Qüdrətdən yaranıb, gözəldir axı.
Sərv qaməti var, sözü məzəli,
O, tamam şeirdir, qəzəldir axı.

Paşa Salahlı

Allah! Bu nə gözəl, çıxdı qarşıma:
Bənzəyir Günəşə, Aya, bilmirəm.
Elə nazla töküb zülfün hər yana,
Darayıb tellərin saya bilmirəm.

Baxıb qara gözə hey sovruluram,
Qəmli-qəmli çalıb ney, qovruluram,
Atıb eşq gölünə, hey boğuluram,
Yetməyir fəryada, qiya, bilmirəm.

Tutub əldən eşq körpüsün keçirir,
Eşq bir dərya, gözlərimə köçürür,
Mən bir təşnə, qətrə-qətrə içirir -
İçdikcə yanıram, doya bilmirəm.

Gözlərimdə dünya mənə qaraldı,
Vardı ürək - bir baxışla yar aldı.
Səyyadıyam, tora düşmüş maraldı,
İstərəm oxlayım, qıya bilmirəm.

Gözüm çəmənzarda gülə düşübdür,
Ruhumu oxşayan telə düşübdür.
Adım Məcnun olub dilə düşübdür,
Həqiqətdir, yoxsa şaya*, bilmirəm.

Mirhəmid, qaçırma əldən fürsəti,
Sevgində addımın qoy olsun qəti.
Göndər elçi, içsin nişan şərbəti,
Çağır el-obanı toya, bilmirəm!!!

06 yanvar 2005

**şaya-yəni, yanlış xəbər*

NİYƏ CANIM ÜZÜRSƏN?

Mən aşıq, gündə dara,
Telini gündə dara.
Telinə söylə, məni
Çəkməsin gündə dara.
(Böyük müğənni Bülbülün
ifa etdiyi mahnıdan)

Gündə yüz yol darayırsan telini,
Ay insafsız, niyə canım üzürsən?,
Nahaq qana bulayırsan əlini,
Kipriyinə bağrım qanın düzürsən,
Ay insafsız, niyə canım üzürsən?

Qara gözdən ürək yanar od alır,
Alovlanır - nuru göyə ucalır.
Təkrar-təkrar canım yanır, kül olur,
Yandırırsan, nə yorulub - bezirsən,
Ay insafsız, niyə canım üzürsən?

Göz qoymayıb qala məndə baş indi,
"Rəhmə gəlib" hücum çəkir qaş indi,
Qoşa nardan alıram "daş-baş" indi,
Bağlayırsan yaxasın, tez sezirsən?
Ay insafsız, niyə canım üzürsən?

Oğrun-oğrun süzdürürsən gözünü,
Basırsan bağrıma gözün közünü.
Məkan verib mənə eşqin düzünü,
Özün isə gülüstanda gəzirsən,
Ay insafsız, niyə canım üzürsən?

Camalın mat qoyur Ayı, Günəşi,
Qəlb evimi isindirir atəşi.
Sənin sinəndəki "Cəhənnəm daşı":
Atəşindən "paylayırsan nəzir" sən,
Ay insafsız, niyə canım üzürsən?.

Mirhəmidəm, eşq gölündə üzürəm,
Darayıb tellərin - gülün düzürəm.
Təkcə mənəm bu zillətə dözürəm:
Ol yerimə, görüm, necə dözürsən?
Ay insafsız, niyə canım üzürsən?

06 yanvar 2005

SƏNİ HƏMDƏM BİLİRƏM

Gəl öz yerinə qoy Ayı, Günəşi...
Əli Kərim

Dərdlər dünyasının ortasındayam,
Təkcə səni qəlbə həmdəm bilirəm.
Dərdlər dərya - mənsə kiçik adayam,
Qan ağlayan gözüm hər dəm silirəm,
Təkcə səni qəlbə həmdəm bilirəm.

Məndən özgə "qəmdən ada" tapmıram,
Sevinc atlı, mən piyada, çatmıram,
Dərd bölməyə bircə adam tapmıram,
Dərdlərimlə bağrım - başın dəlirəm,
Təkcə səni qəlbə həmdəm bilirəm.

Hər kəs öz kefində - qəm içində mən,
"Qəmlər" bulağından qəm içən də mən,
Hamı aydınlıqda, duman, çəndə mən,
Gözlərini əldə Ələm bilirəm,
Təkcə səni qəlbə həmdəm bilirəm.

Gəl yanıma - Kainat yerin alsın,
Ay, Günəş, Ulduz da yerində qalsın.
Taleyim nur olsun, Nurdan güc alsın,
Çıx yoluma: üzü sənə gəlirəm,
Təkcə səni qəlbə həmdəm bilirəm.

Gəl qovuşaq - qoy qovuşsun diləklər,
Vəslimizə fərman versin fələklər,
Qoy oynasın toyumuzda mələklər,
Məqamım "Cənnəti- aləm" bilirəm,
Təkcə səni qəlbə həmdəm bilirəm.

Mirhəmid, qəm etmə; o gün doğacaq,
Sənin də ömrünə günəş baxacaq.
Nur olub qəlbinə o qız yağacaq,
Deyəcək: “Qəlbini nurla silirəm,
Təkcə səni... qəlbə həmdəm bilirəm!”.

08 yanvar 2005

“YURDUM, YUVAM MƏSKƏNİMSƏN, AZƏRBAYCANIM!”

MƏN DƏ SİZİN ELLİYƏM

"Salam!" dedim,-"Əleyküm"ü ver görüm,
Tanış olaq: mən də sizin elliyəm.
Canını sağ, ruhunu saf, tər görüm,
Hər sözündən yurd-yuvası bəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Dəfinə var torpağının təkində,
Neçə növ məhsul yetişir ləkində,
Yer şumlayır, tər tökür el əkində,
Bağı barlı, zəmisi sünbüllüyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Göylərində telli durnalar süzür,
Çöllərində ürkək ceyranlar gəzir,
Göllərində nazlı sonalar üzür,
Dərələri dağ qoparan selliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Maral, cüyür bəzəyi dağlarının,
Şeyda bülbül -ətirli bağlarının.
Aşiqiyəm bahar, yay çağlarının,
Lalə, nərgiz, reyhan, qızılgüllüyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Gözəlləri zülfü qara, bel incə,
Hal qalmayır gözlərini süzüncə:
Şəki,Şirvan,Muğan,Lənkəran,Gəncə,
Bakı, Təbriz, Zəncan, Ərdəbilliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Bağlarında tükənməyən barı var,
Dağlarında əriməyən qarı var,
Şimal -xəzri, cənub-gilavarı var,
Payızında xəzəl tökən yelliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Qeysi Məcnun edən Leyli nazım var,
Kərəm yanğısını çalan sazım var,
"Muğamat" adında xoş avazım var,
Bəmi qəlb oxşayan, şaqraq zilliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Şeiriyyətdə Şeyx Nizamim var mənim,
Öz ahəngim, öz nizamım var mənim,
Nəsimi, Füzuli sözüm var mənim,
Seyyid Əzim, Vahid tək qəzəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Xətaiyəm, elin dövlət rəmziyəm,
Koroğluyam, elin qeyrət nəbziyəm,
Əlimdə aynalı igid Nəbiyəm,
Düşmənin gözündən dəyən gülləyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Xalqı "Gülüstan"la bölünən yarı,
Əlindən alınan küll-ixtiyarı,
Qəmli neyə dönən hər ahü-zarı,
Dastanam, ağıyam, qaravəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Qarabağı düşmən əlində qalan,
Oğlu, qızı erməniyə qul olan,

Öz yurdundan, torpağından qovulan,
Qaçqınam, köçkünəm - adı bəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Ürəyi açıqdır süfrəsi kimi,
Dünyada qəm yoxdur qüssəsi kimi,
İgid övladının cüssəsi kimi
Düşmənə sancılan oxu milliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Bir gün haqq-ədalət zəfər çalacaq,
Haqq naminə xalq bir yumruq olacaq,
Düşmənindən öz qisasın alacaq:
"Qiyamətə qalmaz!" el məsəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Xalq gücün birlikdə biləcək bir gün,
Torpaq azad olub güləcək bir gün,
Mirhəmid sevincin böləcək bir gün:
Göylərə uzanmış ümid əlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

04 dekabr 2005

YURDA YENİ İL GƏLİR

Bəzənib gəlin kimi,
Yurda Yeni il gəlir.
Görüşünə Naxçıvan,
Şirvan, Muğan, Mil gəlir.
Bakı- Təbriz, Lənkəran,
Gəncə- Ərdəbil gəlir,
Yurda Yeni il gəlir!

Qız-gəlin xonça tutub,
Yallı gedir həvəslə.
Hamı əl-ələ tutub,
Oynayırlar, gülürlər,
Oxuyurlar bir səslə,
Mahnı göyə yüksəlir,
Yurda Yeni il gəlir!

Gəlir onbirincilər,
Əldə Vətən bayrağı:
Daha qoymarıq ola,
Torpaq düşmən tapdağı!
Gözlər ümidlə dolu:
Sözlər ürəkdən gəlir,
Yurda Yeni il gəlir!

"Alacağıq geriyə
İşğal olmuş torpağı,
Bu il azad görəcək,
El-oba, Qarabağı"!

Vətən belə düşünür,
Vətən belə köklənir,
Yurda Yeni il gəlir!

Bu il bir olaq gərək!
Eşit, ey türk övladı,
Gəl ataq bir kənara,
Haqlı-haqsız iradı!
Vətən bizə anadı,
Olaq Vətən qanadı -
Vətən göyə yüksəlir,
Yurda Yeni il gəlir!

"Bir olaq"! kəlməsini
Vətənin oğlu desin,
Vətənin qızı desin.
Aşığın sazı desin,
Şairin sözü desin.
Millət - Vətənin gözü,
- Vətənin gözü desin.
Güc alıb bu kəlmədən,
Düşməni bu ölkədən,
Qovmağa bir yel gəlir,
Yurda Yeni il gəlir!

"Birlikdədir - Bütövlük!
Birlikdədir - Qarabağ"!
Gəlin bunu dərk edək,
Gəlin bunu anlayaq.
O günü görən gözüm,
Sevinir, deyib-gülür,

“Vətən azaddır!” - deyir,
Torpaq rahat dincəlir,
Gözün aydın, eloğlu,
Azərbaycan yüksəlir,
Qədəmləri mübarək,
Yurda Yeni il gəlir!

19 dekabr 2004

ANAM BİLƏSUVAR

Deyirlər bülbülə çəmən yaxşıdır,
Insançün öz yurdu, Vətən yaxşıdır.
Vahid, sorma Vətən nədən yaxşıdır,
Adı gəlcək könlüm dastana döndü.
Əlağa Vahid

Muğan torpağında gəldim dünyaya,
Mənə doğma oldu bu əziz diyar.
Mən burda baş əydim ata-anaya,
Mən burda anladım: bir Vətənim var,
Qurban torpağına, anam Biləsuvar!

İsmətlidə kasıb evdə doğuldum,
El-obaya məhəbbətlə yoğruldum.
Ailədə şəkər idim, noğuldum:
Damarımda torpağının dadı var,
Qurban torpağına, anam Biləsuvar!

Birincini... Bəydilidə bitirmişəm,
Yadımdadır sinfə necə girmişəm.
Müəllimim Hüseyni ata bilmişəm,
Müəllimin hansı nankor unudar?
Qurban torpağına, anam Biləsuvar!

Məktəbində bir il şagird olmuşam,
Məhəbbət "dərsini" orda almışam:
Şəhla adlı qıza meyl salmışam,
Qırx il keçib... xatirəsi yadigar,
Qurban torpağına, anam Biləsuvar!

Sonra köçdük, Yardımlıda yaşadım,
El - yurd sarı ikili ad daşıdım.
Hər iki diyara vətəndaş idim,
Hər birinin ürəyimdə şəkli var,
Qurban torpağına, anam Biləsuvar!

Sonra on il... torpağında işlədim,
Məktəbində şagirdlərə dərs dedim.
Bir gün qərar verdim Bakıya gedim,
Övlad harda olsa elin ucaldar,
Qurban torpağına, anam Biləsuvar!

Mirhəmid hər yerdə adını öyür,
Adın qarşısında hər an baş əyir.
Onu eşqin edib müğənni - şair:
Səsi də, sözü də səndən ruhlanar,
Qurban torpağına, anam Biləsuvar!

yanvar 2005

YARDIMLI

Hər aşiqə öz istədiyi yarı gözəldir,
Hər bülbülə öz sevdiyi gülzarı gözəldir.
Əlağa Vahid

Hər insana öz diyarı gözəldir,
Mənim üçün bir cənnətdir Yardımlı.
Tarixi də eşqim qədər əzəldir,
Ən ulu bir məmləkətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Dağı-daşı - ulu tarix yaddaşı,
Ona qiymət verə bilməz hər naşı.
Azərbaycan üzük, O, - üzük qaşı,
Vətən üçün bir sərvətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Biz övladıq - O, müqəddəs anadır,
Məhəbbəti damarda qan qaynadır.
"Qızıl qaya" "Savalana" aynadır,
Ana yurda məhəbbətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Bahar vaxtı bir yolunu sal bizə,
Dağları boyanır lalə, nərgizə.
Neçə ildir gözü həsrət Təbrizə,
Ümid dolu bir həsrətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Bir gəlindir - atıb başa duvağı,
Övladı bəy - bilir hər yol-yolağı.
Kəndlərində neçə şəfa bulağı;
Xəstə qəlbə bir şəfqətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Danışdığı - doğma Vətən sözüdür,
Dilinin and yeri sözün düzüdür.
Məhəbbətdə sədaqətin özüdür,
"Vüsal" adlı bir niyyətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

Könlümə həmdəmdir hər bulaq-daşı,
Torpağa can verən qarı, yağışı.
Mirhəmidə yurd-yuvadır ağuşu,
Şair qəlbə şeiriyyətdir Yardımlı,
Mənim üçün bir cənnətdir Yardımlı.

yanvar 2005

PERİMBEL

(Ata yurduma ithaf edirəm)

Arif olanın sevgili cananı Vətəndir,
Həm namusu, həm qeyrəti, vicdanı Vətəndir.

Hər kəs vətənin sevməsə insan deyil əsla,
İnsan olanın cismidə həm canı Vətəndir.

Hacı Mail

Mənim ata yurdum sənsən əzəldən,
Sənsən doğma obam, elim, Perimbel!
Başqa bir diyarda dil açsam da mən,
Sən olmusan şirin dilim, Perimbel!

Sənin otağında nəslim dil açıb,
Sənin qabağında düşmən əl açıb,
Sənin torpağında fəslim gül açıb,
Sənsən ən ətirli gülüm, Perimbel!

Şeirimdə kəlməni sənə demişəm,
"Bəyənir el məni" - sənə demişəm,
Ən şirin nəğməni sənə demişəm,
Sazımda dillənən telim, Perimbel!

Ulu yaşın tarixdə ən qocadır,
"Qızıl qaya" ucalardan ucadır.
Övladların pak adını ucaldır,
Fəxr edir sənինlə elim, Perimbel!

Daim şükr edirəm mən Yaradana:
Səni tək yaradıb Təbiət-Ana.
Günəş kimi nur saç Azərbaycana, -
İsinsin Şirvanım, Milim, Perimbel!

Sevənlərə "Göznarı" bir and yeri,
"Sarıbulaq" - sərin sular sərvəri,
"Həftçeşmə" - anır yeddi dilbəri:
Gözlərində fitnə-felim, Perimbel!

"Kəhriz"indən içən bilməz, dərd nədir,
Övladların qeyrətli, mərdanədir.
Eşqində Mirhəmid bircə dənədir:
Məcnun dilim, Kərəm külüm-Perimbel!
Sevginlə yaşayım, ölüm, Perimbel!

11 yanvar 2005

BARIŞSIN

Ay Allah, nə ola bu Yeni ildə,
Küsülülər şirin dillə barışsın.
Çıxarıb kökündən, yox edib xarı,
Gül bülbüllə, bülbül güllə barışsın.

Sevib-sevilməkdən ruh gəlsin cana,
Qoy girsin təbiət təzə-tər dona.
Gözəllər gözəli yaşılbaş sona,
Suyunda üzdüyü göllə barışsın.

Qovulsun torpaqdan qaniçən yağı,
Sağalsın Vətənin sinədən dağı.
Millət azad görsün, qoy, Qarabağı,
Bakı-Təbriz, Muğan-Millə barışsın.

Dağların döşündən sərin meh əssin,
Torpağa nur yağsın, bərəkət gəlsin.
Göz gözə sataşsın, ürəklər gülsün,
Dil -dodaqla, dodaq dillə barışsın.

Vətən eşitməsin ana naləsi,
Ruha qanad versin sübhün jaləsi.
Bulaq tək qaynasın aşığın səsi,
Sazında çaldığı tellə barışsın.

Dalmasın aşiqlər müşkül xəyala,
Qalmasın sevgidə alınmaz qala.
Mirhəmid yarıyla yetsin vüsala,
Çaldırıb toyunu, ellə barışsın.

12 yanvar 2005

VƏTƏN SEVGİSİ

"Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim... "
A.Səhhət

Bir sahilsiz dənizdir,
Mənə Vətən sevgisi!
Canımdan da əzizdir,
Mənə Vətən sevgisi!

Qəlbə nurdan bacadır,
Tarixlərdən qocadır,
Hər sevgidən ucadır,
Mənə Vətən sevgisi!

Sevgimin sonasıdır,
Qəlb onla yanasıdır,
Eşqimin anasıdır,
Mənə Vətən sevgisi!

Bu nə istək, həvəsdir?
Bədən onsuz qəfəsdir,
Ən müqəddəs nəfəsdir,
Mənə Vətən sevgisi!

Ömrə vüqar naxışı,
Nur, bərəkət yağışı,
Məsum körpə baxışı,
Mənə Vətən sevgisi!

Huri, Qılman oylağı,
Suyu "Zəm-zəm" bulağı,
Gülü gözəl yanağı,
Mənə Vətən sevgisi!

Ulu Tanrı səsidir,
Sevgi təntənəsidir.
Şəhidlik zirvəsidir
Mənə Vətən sevgisi!

Vətəni göz tək qoru:
Odur ən böyük soru.
Olar qəbrimin nuru
Mənə Vətən sevgisi!

Hər dərdimə şəfqətdir,
Bir tükənməz sərvətdir,
Heç doyulmaz nemətdir,
Mənə Vətən sevgisi!

Mirhəmid, od-həniri,
Əridər daş-dəmiri:
Sevgili yarın biri,
Mənə Vətən sevgisi!

27 aprel 2005

GƏRƏK

Vətəni sevmək imandandır.
Həzrəti Mühəmməd (s.ə.s.)

Aşiq qurban eləsin canını canana gərək,
O da aşiq oduna odlanaraq yana gərək.

Qoxlayıb duymaq üçün ətrini çəməndə gülün,
Bülbül nəğmə oxuya, səs sala hər yana gərək.

"Vətənimçün, öz elimçün keçərəm canımdan!"-
Deməklə bitməyir iş, sən qıyasan cana gərək.

Sevmək üçün hər qarış torpağın bu diyarın,
Uça ruhun, gedə qonaq Şəki, Şirvana gərək.

Qarabağdır Vətənimin behişti-əlası:
Salamı orda verək huriyə, qılmana gərək.

Köçürməkçün qəlbinə sən bu ulu torpağı,
Murovdan boylanasan Gəncə, Naxçıvana gərək.

Ola bilməz tayı heç yerdə Azərbaycanın,
Mirhəmidtək bilə hər övlad onu Ana gərək.

23 avqust

MƏN SİZƏ BORCLUYAM DÜNYALAR QƏDƏR

ATA

(Fevralın 23-də atamın ölümündən 20 il keçir)

Hər bir övlada şərəf şöhrət ilə şan atadır,
Başa tac, qəlbə fərəh, təxtə Süleyman atadır.
ƏLAĞA BAKİR

Sən bir yaraşıqsan dünya üzünə,
Sənsən yaranışın cövhəri, ata!
Elm bir açardır, dünya xəzinə,
Sənsən xəzinənin gövhəri, ata!

Övladın ömrünün çəmənzarısan,
Bədəndə qəlbinin şah damarısan.
Düşərsə çətinə, xilaskarısan,
Başının qüruru, sərvəri, ata!

Övlad gərək səni anlaya, duya:
Bənzərsən torpağa can verən suya.
Sənin ətrafında fırlanır dünya,
Sənsən bu dünyanın məhvəri, ata!

Övlad baxışından qeyrət, güc alır,
Basılmaz düşməni basır, öc alır.
Adınla fəxr edir, göyə ucalır,
Könlünün qanadı, şapəri, ata!

Kainat boydadır bir ata yeri,
O, heç vaxt ölməzdir: əbədi diri.
Övladın ömrünün, bəxtinin nuru,
Səadət Günəşi, Qəməri ata!

Nəvaziş olursan şirin dinəndə,
Tələtüm olursan "üzün dönəndə".
Sənsən Mirhəmidin düşmən önündə,
Alınmaz qalası, sipəri, ata!
Qəlbin qeyrət nəbzi, təpəri, ata!

fevral 2005

ANAMA QURBAN

(31 dekabrda anamın 80 illiyi olur)

Anacan bu həyatdır,
Ana bu kainatdır.
Onsuz həyat acıdır,
O, dünyanın tacıdır.
Onsuz heçdir bu aləm,
Üzər qəlbi qüssə, qəm.
(“Çahargah” üstündə
bəstələnmiş bir mahnıdan)

Anam gəlib səksəninə yetirdi,
Artıq ahıllaşan anama qurban.
Saçlarının qara rəngin itirdi,
Saçları çallaşan anama qurban.

Neçə zülm, neçə sitəm addadı:
Silinərmi heç ömürdən, yaddadı.
Gör neçə il ilk övladı olmadı,
İndi nəsilləşən anama qurban.

Bu dünyaya yeddi övlad gətirdi -
Bir oğlunu doğan günü itirdi.
Ömür kitabına övlad sətirdi,
Ömrü fəsilləşən anama qurban.

Aclıq dövrü tələf olan çox idi,
Ac qalsa da, gözü-könlü tox idi.
Ər tutulub, qayın ölüb - yox idi,
Dərdlərlə əlləşən anama qurban.

İlk övladdan nəvə payı görmədi,
Sonbeşik də töhfəsini vermədi,
Altmışından ərlə ömür sürmədi,
Ərsiz kişiləşən anama qurban.

Dünyanın var-dövlət selin görməyib,
Qız-gəlin daraya telin, görməyib,
Xoş talehli oğul, gəlin görməyib,
Əmrə səbrləşən anama qurban.

Ana, dünya fani, malı da haram,
Ömür nədir, ondan ötrü yalvaram?
Bəlkə sən gələnə diri qalmaram,
Mənlə növbələşən anama qurban.

Səndən qabaq ölsəm, çox ağlamazsan,
Başa qara salıb, yas saxlamazsan.
Məndən razı qalsan, mane olmazsan,
Oğlun cənnətləşə, anama qurban.

Ana bir Allahdır əsl övlada,
Onun kölgəsində nə dərd, nə qada.
Unudub özünü fani dünyada,
Övlad fikirləşən anama qurban.

Sənsən Mirhəmidin nuru, işığı,
Sənsiz bu dünyanın nə yaraşığı?
Qurban sənə özü, oğul-uşağı,
Qəlbimdə bütləşən anama qurban,
Sağkən heykəlləşən anama qurban.

10 dekabr 2004

SONBEŞİYİM - AYSELİM

Hər ata-ananın min bir diləyi,
Xoş gündə, pis gündə arxa, köməyi,
Sevinci, kədəri, arzu, diləyi,
Ürəyi, həyatı, baxtıdır övlad.

Əlağa Bakir

Qəlbimdə sevincimsən,
Ağzımda şirin dilim.
Mirvarimsən, incimsən,
Bağ-bağçamda tər gülüm,
Sonbeşiyim - Ayselim.

Sən dünyaya göz açdın -
Evimizə nur saçdın.
Qəm-kədər hara qaçdı?
Yox oldu ilim-ilim,
Sonbeşiyim - Ayselim.

Adət etdin salamı,
Səni sevirdi hamı.
Səndən alıb ilhamı,
Şeir deyirdi dilim,
Sonbeşiyim - Ayselim.

Qədəm qoydun məktəbə,
Boy atdın bir mərtəbə.
Anan sənə hər dəfə
Söyləyir: - "Həkimliyin

qoy indidən təməlin",
Sonbeşiyim - Ayselim.

Evdə kiçik olsan da,
Çox işi sən görürsən.
Alıb ələ ananın ,
Gah saçını hörürsən,
Gah darayırsan telin,
Sonbeşiyim - Ayselim.

Ata-ana qəlbinin,
Məhəbbət hakimisən,
Şirin-şəkər sözünlə,
Loğmanı, həkimisən.
Gülüşünlə xoş keçir
Hər günüm, ayım, ilim,
Sonbeşiyim - Ayselim.

Qohum-qonşu hamısı,
Səni sevir, doğrusu.
Sənsən evin namusu,
Həm də qeyrət təməli,
Sonbeşiyim - Ayselim.

Çat bu gözəl dünyada
Hər arzuya, murada.
Yetiş şərəfli ada,
Fəxr etsin sənlə elim,
Sonbeşiyim - Ayselim!

18 dekabr 2004

MÜƏLLİM

Müəllimlik müqəddəs bir sənətdir həyatda,
Müəllimin hər sözü həqiqətdir həyatda.
S.Rüstəm

Bənzəyir sənətlər içrə Günəşə,
Sözüm nə toxunsun, nə qəlbə dəysin:
Dünyada nə qədər var sənət, peşə,
Müəllim önündə gərək baş əysin!

Müəllim, şəninə dastan deyilib,
Hər söz məhəbbətdən yarpaqtək qopub.
Adına "Mənəvi ata" deyilib,
Sevgin damarlara, qəlblərə hopub.

Yol səndən aparır sözün düzünə,
Düzlük bir asiman - uçarı sənsən.
İnsan - mənəviyyat, gizli xəzinə,
Gizli xəzinənin açarı sənsən.

Sənsən sadəliyin, düzlüyün rəmzi:
Onlar səndən doğub, əflak olublar.
Sənsən bir təmizlik, paklıq dənizi:
Qətrəylə içənlər ən pak olublar.

Sənə qoyulmalı ən uca heykəl,
Hər bir məmləkətin tən ortasında.
Sənsən irəliyə aparan məşəl,
İşıqsan zülmətin... günortasında!

26 yanvar 2005

NADİR

(Sevimli müəllimim Nadir Əliyevə ithaf edirəm)

Başım ağarıbsa da, deyilsəm də mən cavan,
Yanımda bir müəllim adı çəkilən zaman,
Tez ayağa qalxıram bir məktəbli uşaq tək:
Müəllimə həmişə, hər yerdə hörmət gərək.
S.Rüstəm

Qəlbi təmizliyin, vicdan paklığın,
Çatıbdır odunu ellərə, Nadir.
O könül saflığın, üzü ağlığın,
Salıbdır adını dillərə, Nadir.

Sənin qızıl kimi əllərin vardır,
Qəlbləri oxşayan dillərin vardır,
Bağında ətirli güllərin vardır,
Özün yaraşıqsan güllərə, Nadir.

Qırx ildir məktəbdə "külüng çalırsan",
Nə yorulub, nə dəstədən qalırsan.
Fikrin, meylin şagirdlərə salırsan,
Ömrü həsr etmisən illərə, Nadir.

Sənintək adına, de, uyğun hanı?
Əl işlərin gəzir Azərbaycanı.
Otuz beşə çatıb davamçın sanı,
Şöhrətin yaraşıq ellərə, Nadir.

Ucaltmısan el-obanın adını,
Yandırmısan neçə sönmüş odunu.

Elə sən daddırdın şöhrət dadını,
Zəhmətin - bir işıq qəlblərə, Nadir.

Sənsən könüllərin baharı, yazı,
Sənsən bülbüllərin ən xoş avazı,
Sənsən Mirhəmidin sədəfli sazı,
Mizrabam Sən adlı tellərə, Nadir,
Möhtacam o ustad əllərə, Nadir!

27 yanvar 2005

SABİRİN SƏSİ

(Ustad xanəndə, xalqın sevimlisi
Sabir Mirzəyevə ithaf edirəm)

Sabirin "Çahargah"ı, "Bəstənigar"ı
Musiqi elmiylə yarıdır, yarı...
("Xoşuın gəlir" adlı naməlum şeirdən)

Allah səslər içrə ayırıb səsin,
Edibdir səslərin bülbülü, Sabir.
Eldə məhəbbətin, eldə hörmətin,
Ötüb Xan əmini, Bülbülü, Sabir.

Gərək Vətən oğlu Sabiri, hökmən,
Bənzədib tər gülə, sinəyə taxa.
İkinci xanəndə tanımıram mən,
Bütöv bir dəstgahı adına çıxa.

Sənin "Çahargah"ın, "Bəstənigar"ın,
Ən uca zirvədir el sənətində.
Sənsən sevimlisi hər bir diyarın,
Sultansan səslərin səltənətində.

El-oba sevgisi qolun, qanadın,
Xəstə könüllərin sənsən əlacı.
Bütün tərifl ərdən ucadır adın -
Sənin tərifl ərə nə ehtiyacın!

Çoxları sənətə yarımçıq gəlib:
Gəliblər təltifçün, ad almaq üçün.

Sənin sə sinlə muğam yüksəlib,
Sənətə gəlmisən yaratmaq üçün.

Bu gün Qarabağı almaq istəsək,
Gərək "Mənsuriyyə"n hərbi marş ola.
Düşmənə qələbə çalmaq istəsək,
Zəngulən millətə bir sirdaş ola.

Hər bir müğənniyə ən böyük dilək:
Qəlbə həmdəm bilib, doğma sanalar.
Gəlin, biz Sabirin qədrini bilək -
Sabirdən bir daha doğmaz analar.

Sənət Mirhəmidçün sənlə ucalıb,
Nə ola, səslərdən saray tikilə.
Sənin zəngüləndən səsim güc alıb,
Adım da adınla qoşa çəkilə!

28 yanvar 2005

RƏVANƏ QIZIM

(Övladlardan qız nübarım Rəvanəyə
doğum günü münasibəti ilə)

Sən qışda gəldin dünyaya,
Bənzər oldun Günə, Aya,
Yanvarı döndərdin Maya,
Oldun gül-çiçəkli yazım,
Ay mənim Rəvanə qızım.

Bağda gülə qarışardın,
Lalə kimi alışardın,
Gül-çiçəklə danışardın,
Sən idin ətirli sözüm,
Ay mənim Rəvanə qızım.

Qaşları qıyqac qız idin,
Sanki yanar ulduz idin,
Sözündə haqlı, düz idin,
Doğrum, həqiqətim, düzüm,
Ay mənim Rəvanə qızım.

Uşaqlıq keçdi, daldadır,
Gəncləşdin, ömrün bal dadır.
Uğur qatarın yoldadır,
Qoy çin olsun sənlə arzum,
Ay mənim Rəvanə qızım.

Sevdin öz yurd, millətini,
Qazandın el hörmətini,

Seçdin ata sənətini,
Fərəhləndim, gülür üzüm,
Ay mənim Rəvanə qızım.

Evimizin vüqarısan,
Qızdan ilki, nübarısan.
Taleyindən də yarı sən:
Xoşbəxtlik gölündə üzüm,
Ay mənim Rəvanə qızım.

Dost, həmdəmin bahar olsun,
Bağında hər cür bar olsun,
Qoy sənə Tanrı yar olsun,
Fəxr edim səninlə özüm,
Ay mənim Rəvanə qızım.

14 yanvar 2007

ELLƏR LOGMANI

(Beynəlxalq dərəcəli parapsixoloq İlham Səfərliyə ithaf edirəm)

Ellər loğman deyir sənə əzəldən,
Xəstə könülləri sənsən düzəldən.
Ömrü daha yağı, vaxtsız əcəldən
Qoru hikmətinlə hər zaman həkim.
Mirmehdi Seyidzadə

Allahın sevimli bəndəsisən sən:
Ellər sənə təbib, loğman söyləyir.
Yanına ən ağır xəstələr gəlsə,
Şəfalı əllərin dərman eyləyir.

Bu şəfa, bu qüvvət Tanrı möcüzü,
Sənə bəxş edibdir Allahın özü.
Tarix belə loğman az görüb, düzü;
Ümidsiz insanlar fəğan eyləyir.

Sormadan xəstənin dərdin bilirsən,
Sevincin paylaşıb, qəmin bölürsən,
Qəlbə günəş doğub, üzə gülürsən,
Xəstə ruh sevincdən tüğyan eyləyir.

Olur ki, yanına "öləri" gəlir,
"Ölümə çarə yox!" - bunu el bilir,
Əlacsız qalırsan - qəlbin kövrəlir,
Əcəl öz hökmünü bəyan eyləyir.

Xoş sözü, kəlməni şəfa bilirsən,
Kimsə şəfa tapır - deyib gülürsən,

Sevincdən ağlayıb gözün silirsən,
Kim sən tək göz yaşın leysan eyləyir?

Ümidin üzsə də dərman-davadan,
Xəstə əl üzməyir təkçə Xudadan.
Sənə qüdrətindən verib Yaradan,
Adında loğmanlıq ünvan eyləyib.

Söhbətin dillərdə şərqidir, İlham,
Üzün məhəbbətə sərgidir, İlham,
Səndəki bu şəfqət vergidir, İlham,
İnsanı Sübhana şükran eyləyir.

Sənlə sağlam olur gənc də, qoca da,
Əl tutursan kimsəsizə, aca da.
Adın durub ucalardan ucada,
Qəlbləri özünə meydan eyləyir.

Qızların ömrünə gün tək nur saçır:
Ocağında Şəmslə Günəş dil açır.
Nəsl ağacı Tural ilə gül açır,
Həyat bağçasına bağban eyləyir.

Başının tacıdır bu Vətən - Ana,
Bağlısan vicdana, dinə, imana,
Sən ki, fəxarətsən Böyük Turana,
Şöhrətin elləri heyran eyləyir.

Ad-sanın, şöhrətin dağları aşır,
Səndən ilham alıb ürəklər coşur.
Mirhəmid şəninə nəğmələr qoşur,
Adını dillərdə dastan eyləyir.

16 noyabr 2005

İTHAFLAR



BİZİM SEVİNC

(Tələbə yoldaşıma ithaf edirəm)

İşvədi, nazdı,
Qəlbə od salan,
Alagöz qızdı,
Bahardı, yazdı
Bizim bu Sevinc.

Qəlbi saf, düzdü,
Bir də görürsən,
Toylarda süzdü,
Yanar ulduzdu
Bizim bu Sevinc.

Gözlər piyala,
İstər aşiqin
Ağlını ala,
Dalır xəyala,
Bizim bu Sevinc.

Hobbisi rəqsdi,
Çırtma çaldırıb,
Oynadın, bəsdi!
Qəlbə həvəsdi,
Bizim bu Sevinc.

Aşiqləri çox,
Amma heç kəsə,
Hələ meyli yox.
Könlü, gözü tox,
Bizim bu Sevinc.

Dindirsən - laldı,
Düşmə xəyala,
Ləbləri baldı.
Sanki maraldı,
Bizim bu Sevinc.

Şən, gülər üzdü,
Dindirə bilsən,
Bir şirin sözdü.
Bir xumar gözdü,
Bizim bu Sevinc.

Bədəni tüldü,
Mirhəmid üçün
Təzə, tər güldü.
Şeyda bülbüldü,
Bizim bu Sevinc.

16 dekabr 2004

1.2004-2005-ci tədris ilində ADPU tələbələri nəzərdə tutulur

KÖNUL

(Tələbə yoldaşıma ithaf edirəm)

Gözəllərin arasında,
Bənzərsən ceyrana, Könül!
Aşiqlərin ağlın alıb,
Edibsən divana, Könül!

Geyibsən əyninə xara,
Yaraşıqsan çəmənzara.
Siyah tellərini dara,
Tax üstündən şana, Könül!

Gülüşündən nur ələnir,
Könüllərə səpələnir.
Ruhlar sanki təzələnir,
Can düşür sahmana, Könül!

Gültək təravətli, şuxsan,
Sevən qəlbə bir işıqsan.
Bu qamətlə yaraşıqsan,
Yerə, asimana, Könül!

Mirhəmid heyran yerişə,
Qurban deyir hər gəlişə.
İnanma, səni dəyişə,
Min bir-iki cana, Könül.

17 dekabr 2004

ULDUZU

(Psixologiya elmlər namizədi adı alması münasibətilə ADPU-nun müəlliməsi

Ulduz Şiriyevaya ithaf edirəm)
Qəlbində fərəhi aşıb-daşıbdır:
Gəlibdir təbrikə elim Ulduzu.
Elmlə baş-başa qoşalaşıbdır:
Ulduz elmi seçib, elm Ulduzu.

Elmin meydanında döyüşübdür O,
Neçə alimlərlə deyişibdir O.
İllər axarında dəyişibdir O:
Ruzigar edibdir həlim Ulduzu.

Qəlbi götürməyib nə danlaq, töhmət,
Edib haqsızlığa, pisliyə nifrət.
Boş yerə getməyib çəkdiyi zəhmət,
Bəhrəsi edibdir alim Ulduzu.

Maşallah, yerində kamalı, ağlı,
Nə eşqə düşübdür, nə sinə dağlı.
Ürəkdən imana, O, dinə bağlı,
Tanrı özü edib təlim Ulduzu.

Camali-vəsfini təbiət çəkir,
Qəlbində insana mərhəmət əkir.
O qədər naz edir, bağrımı çəkir,
Görəndə qalmayır halım Ulduzu.

Mirhəmidin yaraşıqdır elinə,
Ondan qeyri bir ad gəlməz dilinə,
Baxışından döndüm eşqin gölünə:
Daşıb aparacaq selim Ulduzu,
Elmə bağlı olan alim Ulduzu.

17 dekabr 2004

SAHİLƏ

(ADPU-nun dosenti, pedaqoji elmlər namizədi, özümə həm müəllimə, həm də böyük bacı seçdiyim Sahilə xanım Orucovaya ithaf edirəm)

Qarşısında vəcdə gəlib, qələm yazır şeirini
Elmin bağçasında açılan solmaz gülə.
Axıtdın el yolunda zəhmət, alın tərini,
Dedilər: "insaf elə, gəl, canına rəhm elə",
Elin alim qızısan, səndən olmaz, Sahilə.

Səni Allah sadəliyin ümmanında yaratdı,
Ata-ana sevgisinin amanında yaşatdı.
Məhəbbətsə ürəyinə güman adlı daş atdı,
Göz yaşların yanağına süzüldü gilə-gilə,
Elin alim qızısan, səndən olmaz, Sahilə.

Ananın ən bəxtəvər, ən şirin sevinc dadı
Dönür sonsuz dünyaya doğulanda övladı.
Gəldi dünyaya Sevdan-oldu arzun qanadı,
O boy atdı, böyüdü, arzular gəldi dilə,
Elin alim qızısan, səndən olmaz, Sahilə.

Səni ata bildi O, səni ana bildi O,
Sən qəmləndin-ağladı, sən güləndə güldü O,
Dönüb sevda selinə, ürəyinə doldu O:
İndi ana qəlbində qarışıbdır sel selə,
Elin alim qızısan, səndən olmaz, Sahilə.

Duymasın balan sənin qoy dünyanın acısın!
Pak ismətin, namusunla bu dünyanın tacısan,
Sevdaya şərəfli ana, Mirhəmidə bacısan,
Biz Sən adlı ümmandayıq-çıxart bizi sahilə,
Elin alim qızısan, səndən olmaz, Sahilə.

21 dekabr 2004

NİGAR

(Tələbə yoldaşım Nigar İsmayılovaya ithaf edirəm.)

Bu dünyada sevinc, fərəh,
Sənlə aşiq, ay Nigar!
Sən adına, adın sənə
Verir yaraşıq, ay Nigar,
Yetər, barışaq, ay Nigar!

Şux qamətin, boyun vardır,
Peyğəmbərdən soyun vardır.
Bir saraylıq toyun vardır,
Oyna, yarışaq, ay Nigar,
Yetər, barışaq, ay Nigar!

Görünür şana telində,
Qızarır həna əlində.
Özgə aləmsən güləndə,
Eşidən aşiq, ay Nigar,
Yetər, barışaq, ay Nigar!

Süzüb qıyqacı baxırsan,
Neçə aşiqi yaxırsan.
Tellərinə gül taxırsan:
Salırsan işıq, ay Nigar,
Yetər, barışaq, ay Nigar!

Ataq sözlərin acısın;
Sən gözəllərin tacısan.

Mirhəmidə bir bacısan,
Bacı-qardaşıq, ay Nigar,
Yetər, barışaq, ay Nigar,
Di gəl, barışaq, ay Nigar!

19 yanvar 2005

NAZİLƏ

Könlüm sənə rast gələni
Sirdaş olubdur yaz ilə.
Sənin o qara gözlərin
Alır canımı naz ilə,
Ay qaragözlü Nazilə.

Əyri qaşların can alır,
Ruh gah ölür, gah canlanır,
Məhəbbətdən cilalanır,
Nəğmə deyir avaz ilə,
Ay şirinsözlü Nazilə.

Günəş camalın nur salır,
Ağlımı başımdan alır,
Ümidim bir sözə qalır,
Qəmli könlümü saz elə,
Ay gülərüzlü Nazilə.

Tellərini saz bilmişəm,
Səsini avaz bilmişəm,
Ömrü sənlə yaz bilmişəm:
Açır gül-çiçək yaz ilə,
Ay gözəl-göyçək Nazilə.

Güllərin xoş ətri sənin,
Şeirimin baş sətri sənin.
Ömrüm qətrə-qətrə sənin
Dodaqlarına düzülə,
Şəkərin çəkə naz ilə,
Ay ləbi şəkər Nazilə.

Gəl sözümü salma yerə:
Həna yax nazik əllərə.
“Hə” sözün de elçilərə,
Mirhəmidə az naz elə,
Nazdan yoğrulmuş Nazilə,
Nazla doğulmuş Nazilə!

15 fevral 2005

XANIM

Bir belə qızlar içində,
Tək sənsən gümanım, Xanım!
Həm gözləri can alanım,
Həm qaşı kamanım Xanım,
Ay dinim, imanım, Xanım!

Allah səni tək yaradıb,
Sanki bir mələk yaradıb,
Ömrümə bəzək yaradıb:
Bağı-gülüstanım Xanım,
Ay dinim, imanım, Xanım!

Uşaqlıq daşın atmısan,
Sevda həddinə çatmısan,
Sevgidən bir od çatmısan:
Oduna qalanım, Xanım,
Ay dinim, imanım, Xanım!

Tər şamama tağıymışsan,
Eşq-məhəbbət bağıymışsan.
Sən ömrümə yağıymışsan,
Ya möhlət, amanım, Xanım,
Ay dinim, imanım, Xanım?

Qaş can alır gözün üstdə,
Diz çökdüm bir sözün üstə.
Al başımı dizin üstə:
Qoy Cənnət dolanım, Xanım,
Ay dinim, imanım, Xanım!

Od vurmusan - yanıram mən,
Eşqdən özgə danıram mən.
Zərrə, damla anıram mən,
Sən dərya, ümmanım, Xanım,
Ay dinim, imanım, Xanım!

Mirhəmidi atıb getmə,
Bircə sözə satıb getmə,
Sən dənizsən, udub getmə:
Sahilə yan alım, Xanım,
Ol mənə limanım, Xanım,
Ay dinim, imanım, Xanım!

2 mart 2005

MEHRİBAN

(Jurnalist Mehriban xanım
Kamilqızına ithaf)

Nə gözəl ad qoyub ad qoyan sənə,
Həyatda adınla ucal, Mehriban!
Mehribanlıq ilham verir insana,
O gözəl adından güc al, Mehriban!

Baxıram boyuna: cılız bir qızsan,
Baxıram üzünə: yanar ulduzsan.
Gözün eşq dəryası - bir damla sızsa,
Canlar alar, verməz macal, Mehriban!

Giley-güzar etmə bəxtdən, taledən:
Eşqdə xeyir tapmaz qeylü-qal edən.
Yanağın al, ləblərini bal edən
Çəkib tellərinə sığal, Mehriban!

Düz demək edibdir dilini "acı",
Əyrini düz kəsər, üzülmə, bacı.
Doğru söz, həqiqət - firuzə, inci,
Yalan, əyri olub xəcil, Mehriban!

"Mehribanlıq verir həyata zinət,
Gül inciməz, bülbül çəkməz xəcalət"*,
Olsun taleyinə xoşbəxtlik qismət,
Sevginlə yaşa dol, "qocal", Mehriban!

Mirhəmidəm, məhəbbətdən bir dağam,
Sədaqət - amalım, nə qədər sağam!

Beş günlük dünyada mən də qonağam,
Bir gün aparacaq əcəl, Mehriban,
Sən vermə əcələ macal, Mehriban,
Mehriban adınla ucal, Mehriban!

13 mart 2005

1.-beyt xalq folklorundandır.

SABİRABADLI QARDAŞLAR

(Dörd qardaş - dörd dosta ithaf edirəm)

"Dörd dost,dörd ürək, dörd yoldaşıq biz,
Birdir arzumuz, diləklərimiz!"
("Bəxtiyar" kinofilmindən)

Bir atanın, bir ananın barıdır,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.
Bir nəslin vüqarı, iftixarıdır,
Qohum-əqrəbanın baş arkadaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Həsən böyük qardaş - ata əvəzi,
Qəlbə hərarətdir isti nəfəsi.
Öyüd-nəsihətdir hər bir kəlməsi,
Olub dost-tanışa könül sirdaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Zəhmətə qatlaşıb - zəhmət diləkli,
Pəhləvan cüssəli, igid biləkli,
Vətənə gərəkli, elə gərəkli:
Müqəddəs bilirlər torpağın, daşın
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Göz açıb, evində ədalət görüb,
Haqq söz söyləməyə cəsarət görüb,
Vətən sevgisində fəxarət görüb:
El-oba qayğısın çəkməz hər naşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Atanı Tanrının kölgəsi sanıb,
Onu dahi bilib, ona inanıb,
Ata qayğısıyla eldə sınanıb,
Ata bilib hər kəs böyük qardaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Qardaşlar bir olub əkin-biçində,
Bilirlər torpağın "cikin-bikin" də.
Ellə bir çəkirlər elin yükün də:
Bir götürüb, bir qoyurlar hər daşın,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Zəhmətlə qazanmaq olub vərdişi,
Allahın adıyla başlar hər işi.
Bərəkət gətirsin hər yaz gəlişi,
Qoy bol olsun qazancları, daşbaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Övlad zəhmətilə el olur abad,
Vətən fərəhlənir, ürək olur şad.
Əziz Qasımbəyli,doğma Sabirabad
Sizinlə fəxr etsin hər qədəmbaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

Bu il sizdən gördüm qarpız nübarın,
Allah bol eyləsin bostanın barın.
Unutmayın duz-çörəyin ilqarın,
Unudarmı məgər qardaş qardaşı:
Olun Mirhəmidə ürək sirdaşı,
Həsən, Səməd, Habil, Mirzə qardaşım.

1 iyul 2005

MAİS

(Sabirabadlı tanışıma ithaf)

"Onunçün əlimi mən öyrətdim bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə".
Nizami Gəncəvi

Bu gün ürəyimdən bir fikir keçir:
Əzizim Maisə həsr edim şeir.
Ömürdən günləri vururuq başa,
Barı şeir yazaq dosta, yoldaşa.

...Mais Sabirabaddan olan tanışdır,
Qəlbimi özünə rəfiq sanmışdır.
Özü zəhmətkeşdir, zəhmətsevərdir,
Dost üçün can qoyan bir hünərvərdir.
Zəhmətidir işinin zatı, mayası,
Zəhmətlə ucalmaq həyat qayəsi.
Halal zəhmət olub yaşayış yolu,
Halallıq bol edib barı, məhsulu.
Bir oğlu var Həsən, - Allah saxlasın,-
Həyat bağçasının gülün qoxlasın.
Atanın, ananın bircə barıdır,
Ömür gülşəninin çəmənzarıdır.
Ailə firəvan yaşamaq üçün,
Zəhmətə sərf edir Mais tam gücün.

... ...Mais yayda hər gün Bakıya gəlir,
Tanış dükanlara bol yemiş verir.
Maşallah, yemişlər şip-şirin olur,
Nə doymamaq olur, nə doymaq olur!
Qardaşoğlu Bəhlulla yoldaşlıq edir,
Ona əmilik yox, qardaşlıq edir.

Bu söz çoxlarını təəccüb edir,
Söhbət ədalətdən, düzlükdən gedir,
Hər ikisi maşını peşəkar sürür,
Gecələr yolları gündüztək görür.

Maisə şirin dil bəxş edib Allah,
Ona qibtə edir çoxları, Vallah.
Sözləri mehriban, ürəkaçandır,
Sanki ürəklərə işıq saçandır.
Düzdür, ibadətdən uzaqdır bir az,
Amma səxavətdə əli qısılmaz:
İlk bardan dostlara nübarın verər,
Onlara qonaqlıq süfrəsin sərər.
Mənə də nübarlıq payını vermiş,
Bir neçə yemiş də bizə göndərmiş.
Yemişlərin dadı damaqda qalıb, -
Sağ olsun, bizləri yadına salıb.
"Əl, əli yuyar, əl də ki, üzü",
Atalar sözüdür bu, sözün düzü.
Şeirə həvəskardır o, şeirbazdır,
Odur ki, mən ona bu şeiri yazdım.
Mirhəmiddən ona yadigar olsun,
Qəlbində həmişə qoy bahar olsun.

17 iyul 2005

BİR YAŞLI ŞEİRİMLƏ ÜZ-ÜZƏ

(İlk şeirimin 1 yaşına ithaf edirəm)

Bir ildir qələmin vüsalındayam,
"Şeir" adlı gör neçə "övladım" olub!
Dadıma yetməyə harayındayam,
Əlyetməz köməyim, imdadım olub.

Bəzən qəmləndirib-gözdən yaş axıb,
Bəzən yağışlaşıb, qəlblərə yağıb,
Bəzən şimşək kimi göylərdə çaxıb,
"Məhəbbət" adında qanadım olub.

Bədxahlar nəfəsin itirən də O,
Nadanlar tənəsin götürən də O,
Əhdə sədaqəti gətirən də O,
Sevgidə ilk sözüm, ilk andım olub.

Az qalır, dərdindən saçını yola,
Bir ildir həsrətdir şirin vüsala:
Dönüb səhifəyə, kitaba dola, -
Arzuda inləyən inadım olub.

Başımdan ağlımı alan da şeirim,
Qəlb kimi qəmlənib, dolan da şeirim,
Vüsal nəğməsini çalanda şeirim,
Ən ülvi diləyim, muradım olub.

Budur üz-üzəyik: bu O, bu da Mən,
Neçə fikir keçir şair qəlbimdən,
Mirhəmidəm, çəkinmirəm ölümdən:
Əbədi yaşayan "Şeir" adım olub!

23 dekabr 2005

TƏBRİKLƏR

40 YAŞIN MÜBARƏK, BACI!

(14 dekabr 2004-cü il bacım Məleykənin 40 yaşı tamam oldu)

Bu gün sənin ad günündür,
40 yaşın mübarək, bacı.
Sevinc günün, şad günündür -
Ötübsən kəklik, turacı,
40 yaşın mübarək, bacı!

Uşaqkən dəcəl qız idin,
Bacı sarı yalnız idin.
Lalə, Reyhan, Nərgiz idin,
Sən idin güllərin tacı,
40 yaşın mübarək, bacı!

Nə tez ələ həna saldın,
Gənc yaşında ana oldun.
Köçdü qız - qaynana oldun,
Qızlarına sanki bacı,
40 yaşın mübarək, bacı!

İki oğlun, iki qızın,
Hər biri ömür ulduzun.
Çəkdin hər qayğısın, nazın,
Oldun dərdlərin əlacı,
40 yaşın mübarək, bacı!

Ata bildin qaynatanı,
Ana bildin qaynananı.
Verdilər xeyir-duanı:
Silindi ömründən acı,
40 yaşın mübarək, bacı!

Evin hər dərdini çəkdin,
Baxça salıb, sən gül əkdin.
Hamı gülsə, güləcəkdin,
Gizlin qaldı ağrı, acı,
40 yaşın mübarək, bacı!

Ailəni bildin inci,
Ər oldu evdə birinci.
Ayrıdır qardaş sevinci:
Mirhəmidə bacı tacı,
40 yaşın mübarək, bacı!

14 dekabr 2004

ELNURƏ

(Bacım qızına doğum günü münasibəti ilə)

Payızda gəlib dünyaya
Oldun ananın yaz əli.
Şad etdin ata- ananı,
Sən oldun övlad əzəli.

Ağappaqdın, Qarqız idin,
Gözəllikdə yalqız idin.
Şirin-şəkər dil qız idin,
Sən idin sözü məzəli.

Bağ-çəməndə dolaşardın,
Gülsən, gülə qarışardın,
Gül-çiçəklə yarışardın,
Olmuşdun güllər gözəli.

Neçə aydan, ildən keçdin,
Qızlar bulağından içdin.
Neçə könüllərə köçdün,
Xumar gözləri süzəli.

Sevdin Vətəni, eli sən,
Vətən-çəmən, bir gülü sən.
Neçə ildir ki, gəlinsən:
Qəlbin öz əməl, öz əli.

Bülbülün eşqi gülündə,
Gül adı bülbül dilində!
Bir danışıb, bir güləndə
Sevənlər yaşar yüz ili.

Duaçı ol Yaradana,
Çat hər arzu, muradına.
Gəl layiq ol öz adına,
Sən ol ellərin gözəli.

Qoy xoş keçsin ilin, ayın,
Gör taledən övlad payın.
Sevinsin Mirhəmid dayın,
Bol etsin şeri, qəzəli.

02 oktyabr 2006

ƏKİZLƏR

Bu günlərdə qohumlarım Hacı Xanlar və Məşədi Zöhrənin ailəsinə böyük xoşbəxtlik üz verib: 20 illk övlad həsrətinə son qoyan əkiz bacılar dünyaya gəlib.

Sanki aləm yuxudaydı, oyandı,
Necə ki, dünyaya gəldi Əkizlər.
Qoşa günəş olub ömrə boylandı,
Nuruyla zülməti dəldi Əkizlər.

Nə böyük dərd imiş övlad həsrəti,
Bu, alın yazısı, tale qisməti.
Ata-anasına övlad şöhrəti
Bəxş edib, cahanı böldü Əkizlər.

Bax fələyə, bax ruzgara, gərdişə,
Məqam yazıb hər əmələ, hər işə.
Dönüb qığıltıya, şirin gülüşə,
Sevinən qəlblərə doldu Əkizlər.

Boş getmədi ata-ana zəhməti,
El qayğısı, el yolunda xidməti.
HAQQa çatdı el duası, rəhməti,
Qismətə aparan yoldu Əkizlər.

İnsan gərək ümidini üzməyə,
Sınaqlara sinə gərə, bezməyə.
Ömür boyu baş vurmağa, üzməyə,
Sevinc göz yaşından göldü Əkizlər.

Siz iki dünyasız, siz-iki pöhrə,
Sizdən qəlb sevindi, açıldı çöhrə.

Sanki Hacı Xanlar, Məşədi Zöhrə,
Dünyaya təzədən gəldi, Əkizlər.

Kəsilib qurbanlar, çatıb baratı,
Qalxıb asimana sevinc büsatı.
Şadlanan qəlblərə bu kainatı
Sevincə bələmiş tüldü Əkizlər.

Ata-ana üçün həyat bağında
Ətirli güllərdir həm sol, sağında.
Mirhəmid dayının qəmli çağında
Qəlbin sərinlədən yeldi Əkizlər.

12 mart 2007

PƏRVANƏ

(Şairə, üç kitab müəllifi, bir yaşı tamam olan gün doğma Ağdamı işğala məruz qalmış Pərvanə Namiqqızına 15 yaşı münasibəti ilə)

On il gözləmişdi yolunu anan,
On il intizarda qalmışdı atan.
Gözlədi yolunu gör neçə qurban,
Nəhayət, dünyaya gəldin, Pərvanə.

Gəldin, gəlişinlə sevinc gətirdin,
Cənnəti daddıran güldün, ətirdin.
Atanı, ananı kama yetirdin,
Gözdə sevinc adlı seldin, Pərvanə.

Dil açdın, dürr saçdı kəlamın, sözün,
Sevdin bu dünyanın gerçəyin, düzün.
Gəzdi "Vətən!" deyib Ağdamı gözün,
Tapmadı-qəmləndin, doldun, Pərvanə.

Sözlərin məst edir, amma, mey deyil,
Avazın inlədir, amma, ney deyil,
Səndə bu istedad adi şey deyil,
Payını göylərdən çaldın, Pərvanə.

Seçdin: Vətənində ilan olasan,
Ya daş olub torpağında qalasan.
Sevgi varsa, Vətən yaxın, yol asan,
Yolunu sevgidən saldın, Pərvanə.

Gəzir ağızlarda sözün, söhbətin,
Gənc ikən üç kitab-tale qismətin.
Vətən-məhəbbətin, El- məhəbbətin,
Qəlblərə bir körpü saldın, Pərvanə.

El-oba ruhuna calandı ruhun,
Talandı Ağdamın - talandı ruhun,
Vətənsiz bir röya, yalandı ruhun,
Röyanı gerçəkdə buldun, Pərvanə.

Adın kimi sevdin odu, atəşi,
Sən Vətən eşqiylə gördün hər işi.
Mirhəmid ad verdi: "Nəslin Günəşi",
Odunu yurdundan aldın, Pərvanə.

22 iyul 2007

PƏRVİN

(Bacım qızı Pərvinin doğum gününə)

Martın on səkkizi... doxsanıncı il,
Yaz nəfəsli gündə doğuldu Pərvin.
Ev-eşik, elə bil, "Novruz xonçası":
İçində nabatdı, noğuldu Pərvin.

Ayları, illəri arxada qoydu,
Qara qaş, qara göz, bir bəstəboydu,
Dindirsən, deyərsən, büsatdı, toydu:
Söhbəti bir şirin nağıldı Pərvin.

Təmizkardır-xasiyyəti böylədi:
Bir də gördün tellərini teylədi.
Özünə kitabı həmdəm eylədi,
Savaddı, kamaldı, ağıldı Pərvin.

Köməkçidir anasına hər işdə:
Qazanıbdır gözəl vərdiş, səriştə.
Ata dodağında bir xoş gülüşdə,
Ananın dilində "Sağ ol!"du Pərvin.

Xoş yaşansın günü, ayı, hər ili,
Ətir saçsın bağçasında tər gülü.
Qəbul olsun, alsın ali təhsili,
El-oba söyləsin: "Oğuldu Pərvin!"

Əskilməsin üzündən təbəssümü,
Qəlbə əssin, sanki, bahar nəsimi.
Dayısının hədiyyəsi bəsimi?
Şeiriylə təzədən doğuldu Pərvin.

16 mart 2007

DƏLİ MƏNDƏN AĞILLIDIR

QURBAN OLUM SAÇLARININ RƏNGİNƏ

...Ağladıb kimsə pərişan edə bilməzdi məni,
Zülfünə mail edən şanələr ağlatdı məni.
Ə.Vahid

Gülüm, bu gün rəngləmisən saçını,
Qurban olum saçlarının rənginə.
Al, başına qoy gözəllik tacını,
Qoy yaraşsın çiynində səhənginə,
Qurban olum saçlarının rənginə.

Eşq şərbətin, deyən, axı, içmisən,
Körpüsündən min naz ilə keçmisən?!
Saçlarını yüz ölçüb, bir biçmisən:
Çevirmisən ürəyimin bənginə*,
Qurban olum saçlarının rənginə.

Tut əlimdən eşq körpüsün keçirt sən,
Şərbətini qətrə-qətrə içirt sən.
Saçın rəngin ürəyimə köçürtsən,
Qarışaram rənglərin ahənginə,
Qurban olum saçlarının rənginə.

Məhəbbətdən tellərin cilalanır,
Qoşun çəkib qəlb evimə yollanır.
Bu "savaş"dan ruhum, qəlbim nurlanır -
Yaraqlanır, gedir Ulduz cənginə,
Qurban olum saçlarının rənginə.

Tellərini sinən üstə sərəydim,
Öpə-öpə darayaydım, hörəydim.
Evimizdə səni gəlin görəydim,
Oynayaydım "Vağzalı"na, "Cəngi"nə
Qurban olum saçlarının rənginə.

28 noyabr 2004

Bəng-farsca: tiryək

SƏN DƏ MƏNİM MÜƏLLİMİM OLAYDIN

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mənə öz yarım gərək,
Neynirəm özgəsini.
Bayatı

Hər sevən özünə "müəllim" seçir -
Sən də mənim müəllimim olaydın.
Eşq badəsin onun əlindən içir,
Məhəbbətin badəsinə dolaydın,
Sən də mənim müəllimim olaydın.

Əzəl mənə tanıdaydın özümü:
Gözlərindən çəkməyəydim gözümü.
Öyrətməkçün eşq gölündə üzümü,
Gözün məni dəryasına salaydı,
Sən də mənim müəllimim olaydın.

Əl tutuban dünyamıza qaçaydıq,
Ziyalanıb aləmə nur saçaydıq,
Qoşalaşıb birgə məktəb açaydıq:
Dərslərimiz məhəbbətdən olaydı -
Sən də mənim müəllimim olaydın.

Eşq bağında qönçə kimi açmağı,
Sevən qəlbə günəş kimi saçmağı,
Bacarmaqçun asimanda uçmağı,
Məhəbbətdən sənə qanad olaydım,
Sən də mənim müəllimim olaydın.

Eşq - Tanrıdan Yer üzünə əmanət
Onsuz dünya Mirhəmidə rəzalət.
Öləydik: yerimiz olaydı Cənnət;
Cənnət əhli mələkdən dərs alaydı,
Sən də mənim müəllimim olaydın!

29 noyabr 2004

MƏNİM DİŞ YERİMDİR LƏBDƏKİ XALIN

Baxıb qürrələnmə ləbdə xalına,
Mənim diş yerimdir ləbdəki xalın!
Qəddim gətirmisən səcdə halına,
Ağır gəlir mənə dərdin, məlalın,
Mənim diş yerimdir ləbdəki xalın.

Allah gözəllikdən payını verib,
Dərdli aşiqlərin sayını verib,
Sənə Leyli deyib - tayını verib:
Yazıbdı ruhuma Məcnun misalın,
Mənim diş yerimdir ləbdəki xalın.

Əynində libasın gül qarışığı,
Səndən alır oba, el yaraşığı.
Etmisən aşiqi ellər aşığı,
Sazında dillənir vəsfi-camalın,
Mənim diş yerimdir ləbdəki xalın.

Əzəldən dünyaya xallı gəlmisən,
Yanağı al, ləbi ballı gəlmisən,
İçib eşq şərbətin hallı gəlmisən,
Oynayırsan əldə tutub qavalın,
Mənim diş yerimdir ləbdəki xalın.

Mirhəmidin eşqi - Haqqın gərdişi,
Ləbin zikri gecə-gündüz vərdişi.
Bizim nigahımız Tanrının işi:
Nişan üzüyümdür ləbdəki xalın,
Mənim diş yerimdir ləbdəki xalın.
Ocağım, pirimdir ləbdəki xalın,

09 dekabr 2004

OLUR

Bir əlac et mənə, istəkli təbibim sənsən,
Aşiqin çarəsi öz sevdiyi cananda olur.
Ə.Vahid

İstərəm dərdimi sənինlə bölüm:
Məhəbbət yolçusu əhli-hal olur.
Özgəylə bülbültək ötüşən dilim,
Bəs səni görəndə niyə lal olur?

Gəl, mənə Məcnunu misal gətirmə:
Mən bir dağam-sığın mənim ətrimə.
Deyirsən ki, "evimizə ötürmə,
Məhlədə görərlər, qeyri-qal olur".

Səni ucaldacam məni əysən də,
Qədəmbaşı sən xətrimə dəysən də.
Ardınca gələcəm, məni söysən də:
Sözlərin mənimçün şəkər, bal olur.

Nə acıymış məhəbbətin möhnəti,
Bir yandan da el-obanın töhməti.
Heç kəs çəkməz mən çəkdiyim zilləti,
Belə getsə saçım tamam çal olur.

Mirhəmidin sənsən başının tacı,
Sənsiz şirin dünya mənimçün acı.
Təkcə sənsən dərdlərinin əlacı,
Başqa ad yanında xam xəyal olur.

23 dekabr 2004

QAYTAR DODAQ BORCUNU

"Qaytar ana borcunu!" deyən Əli Kərimdən iizr istəyirəm.

"O qızı çayda gördüm,
Əlində bayda gördüm.
Üç öpüb, bir dişlədim...
Ondan nə fayda gördüm?"
(Bayatı)

O gecə yuxumda gördüm mən səni,
Gördüm ki, yolunu bizə salmısan.
Oynatdın yerindən sən hisslərimi:
Başdan ayağadək "qeylü-qalmısan".

Əynində ağ rəngli paltarın vardı,
Sanki öz-özünə parıldayırdı.
Ruhum səni görüb biixtiyardı:
Mənim yuxuda da əqlim almısan.

İki əllə tutub şeirlərimi,
Yenə gülə-gülə mənə baxırdın.
Mən sənə sevgidən "dərs" danışırdım,
Sən isə yandırıb məni, yaxırdın.

Apardın sən məni özünə sarı,
Mən tutdum sən tutan şeir kitabımdan.
Söykəyib ləbimə bal dodaqları,
Üç öpdün bəxtəvər üst dodağımdan.

O gündən alt dodaq küsülü gəzir,
Gəzir qəmli-qəmli, başı aşağı.
Xoşbəxt üst dodağım "paylayır nəzir",
Olub el bəzəyi, el yaraşığı.

Gəl üzr et, könlünü al dodağımın,
Necə ki, araya nifaq salmısan.
Gəl qaytar borcunu alt dodağımın:
Sən ona... üç öpüş borclu qalmısan,
Sən ona... üç öpüş borclu qalmısan.

31 dekabr 2004

YA SƏNƏ VERƏR ALLAH, YA MƏNƏ VERƏR ALLAH

Yar gələr bizə, yatarıq, inşaallah,
Xırda-xırda söhbət qatarıq, inşaallah.
(Rəhmətlik Mahnisə nənəmin
söz boxcasından)

Qədəmbaşı hər sözümdən incimə,
Ya sənə verər Allah, ya mənə verər Allah.
Şərik ol qəmimə, həm sevincimə,
Görənlər söyləsin: "Ay bərəkallah"!
Ya sənə verər Allah, ya mənə verər Allah.

Mən deyirəm: "hörüklərin qulacdır,
Sal boynuma, dərdlərimə əlacdır".
Sən deyirsən: "Nə olub, qaçhaqaçdır"?
Məəttələm səndəki naza, Vallah,
Ya sənə verər Allah, ya mənə verər Allah.

Mən deyirəm: "Zülfün gözdən qaradır,
Bas bağrıma, bağrım başı yaradır".
Sən deyirsən: "Gözüm sənə çaradır",
Neynək, dərman bilib gözlərin yolla,
Ya sənə verər Allah, ya mənə verər Allah.

Mən deyirəm: "Gülüşün bir dünyadır,
Hər öpdükcə ləbin mənə bal dadır".
Sən deyirsən: "Şirinliyim xaldadır"!
Nə inci sözümdən, nə dodaq salla,
Ya sənə verər Allah, ya mənə verər Allah.

Mən deyirəm: “Əmanətim qoşa nar,
Göstər narın, qoy, mən gəlim coşa, yar”.
Sən deyirsən: “Sənsən ona ixtiyar,
İstərsən öp, oxşa, atıb da tulla,
Ya sənə verər Allah, ya mənə verər Allah”.

Mirhəmidəm, məhəbbətdən uçuram,
Sən deyirsən: “Sənlə qanad açıram”.
Deyirəm: “Gəl, səni gəlin qaçırım”,
Deyirsən: “Adət var, elçini yolla,
Ya sənə verər Allah, ya mənə verər Allah”.
... Qovuşarıq, yetərik vüsala, inşaallah,
Həm sənə verər Allah, həm mənə verər Allah.

1 yanvar 2005

XƏBƏRİN VARMI?

(Ustad aşıq Ələsgərə Allah rəhmət eləsin)

Köndələni gedən gözəl,
Dikinə sevmişəm səni.
Eşqin vurubdur kəlləmə,
Ding-ding dingildədir məni.
(Rəhmətlik Qıztamam
nənəmin söz boxcasından)

Al geyinib gəzən gözəl,
Tülündən xəbərin varmı?
Gözlərini süzən gözəl,
Felindən xəbərin varmı?

Bənzərzən özgə cana sən,
Nur salırsan hər yana sən.
Bir yaşılbaşlı sonasan,
Gölündən xəbərin varmı?

Məhəbbətin yaz çağısan,
Nübar şamama tağısan.
Cənnəti-rizvan bağısan,
Gülündən xəbərin varmı?

Gözün şimşək tək çaxdığın,
Nur olub qəlbə axdığın.
Darayıb şana taxdığın,
Telindən xəbərin varmı?

Məhəbbətdən don geyirsən,
Eşqimlə özün öyürsən.

Qəlbində can-can deyirsən,
Dilindən xəbərin varmı?

Ala gözdən sinə dağlı,
Rəhm qapısı üzə bağlı.
Bir baxışla aldın ağlı -
Dəlindən xəbərin varmı?

Mirhəmidi yandır asan,
Yanan, axı, candır, usan.
Gecə-gündüz yandırırsan,
Külündən xəbərin varmı?

13 yanvar 2005

ÖLDÜRÜR

Qüdrətim yox ki, qılam kimsəyə şərhi-qəmi - dil,
Öylə kim, arizeyi-hicrlə bimar olubam.
M.Füzuli ("Leyli və Məcnun " əsərindən)

Ay Allahım! Özün yaxşı görürsən,
Məni bir alagöz ceyran öldürür.
Elə ovsunlayıb nazıyla məni,
Edibdir hüsnünə heyran, öldürür.

Gah darayıb, sığal verir telinə,
Naz qatır hənaya, yaxır əlinə -
Bənzədir özünü nazlı gəlinə:
Alır canım, vermir aman, öldürür.

Damarda qan coşur, ruh edir fəryad,
Olub mən şikara insafsız səyyad:
Dili xəncər, badam gözləri - cəllad,
Kipriyi ox, qaşı kaman öldürür.

Onu mənə taleh özü yetirib,
Məhəbbətdən ömrümə gül bitirib.
İyləmişəm, gör nə hala gətirib:
Göz tutulub, başda duman, öldürür.

Mirhəmidəm, sevgi adlı küləyəm,
Həsrət-həsrət ötən bir qəmli neyəm.
Qoymayır adını kimsəyə deyəm:
Adı pünhan, odu bəyan öldürür,
Eldə şayan: bilir cahan, öldürür.

14 yanvar 2005

BOYNUMDA NƏ QƏDƏR QURBANLAR DURUR!

Gül açan vaxtı çəməndə sal, yarım, yada məni,
Sənə qurban özüməm, day sənə qurban nə kəsim?*

Hacıbaba Hüseynov
{Ustadxanəndə, sağlığında
Respublikanın Xalq artisti)

Elimə xoş gəlib Qurban bayramı,
Boynumda nə qədər qurbanlar durur!
Kəsilib qurbanlar - sevinir hamı,
Boynumda nə qədər qurbanlar durur!

Birini - sən gəzən düzə demişəm,
Birini - yandıran gözə demişəm,
Birini - "Eşq" adlı sözə demişəm -
Boynumda nə qədər qurbanlar durur!

Çiyninə tökdüyün telə - birisin,
Bağımda əkdiyin gülə - birisin,
Bülbül tək ötdüyün dilə - birisin,
Boynumda nə qədər qurbanlar durur!

Birin ayırmışam sən çıxan yola,
Birini - sənlə gəzək qol-qola,
Birini ruhuna - içimə dola,
Boynumda nə qədər qurbanlar durur!

Birisi - lalə tək yanağı alın,
Birisi - bərq vuran üzdəki xalın,
Birisi - yandıran ləbləri balın,
Boynumda nə qədər qurbanlar durur!

Başına örtdüyün duvağa - birin,
O gəlin köçdüyün ocağa - birin,
Ruhuma yurd olan qucağa - birin,
Boynumda nə qədər qurbanlar durur!

Birini - bol edib atdığın naza,
Birini - Sən adlı bir insafsıza,
Birini - toyumuz çalınan yaza,
Boynumda nə qədər qurbanlar durur!

Könlüm həmdəm seçib bir qaragözü,
Vəsfinə yetməyir yüz qurban, düzü,
Ən böyük qurbanlıq - Mirhəmid özü,
Boynumda nə qədər qurbanlar durur,
Yer ilə Göy qədər qurbanlar durur,
Çalınan toy qədər qurbanlar durur!

21 yanvar 2005

1.day-daha sözünün el danışıq forması

MƏNİM GÜNAHLARIM ƏFV EDƏ BİLSƏN...

Məndə sığar iki calıan,
Mən bu cahana sığmazam...
Nəsimi

Mənim günahlarım "başımdan böyük",
Əfv etsən, ən adil bir hökmdarsan!
Günahdan qamətim qarşında əyik:
İstəsən kəs başım, ya bağrım yar sən.

Axı günahlardan hansını deyim:
Yanında qızları mən dindirmişəm.
İnan, İlahidən Sənsən diləyim,
Özgə gözəlləri bacı bilmişəm.

Sevinir ürəyim, qaynayır gözüm:
Eşqimlə odlanıb sən yanırmışsan,
Ən şirin xəbərim, ən şirin sözüm -
Sən məni qızlara qısqanırmışsan!

Qısqanmaq sevginin əlamətidir -
Onsuz eşq, məhəbbət dönər cansıza,
Sənin məhəbbətin mənə çətindir:
Səni qısqanıram canlı-cansıza!

Əyər bir söz deyib danışıb dilim,
Məqsədim qızlara xoş gəlmək deyil.
"Onlara" söz deyən dodağım, dilim,
Sənə aşiq olub, Sənə salıb meyl.

And içim peymana - dinlə sən məni:
Məbadə başqasın dindirərəm mən.
Sən də, gəl, əfv edib bağışla məni,
Yoxsa ki, özümü öldürərəm mən!

And içək, əhd edək - sözümüz qəti:
Qoy iki könüldə bircə can olsun.
Toy edək, biz içək vüsal şərbəti,
Eşqimiz dillərdə bir dastan olsun!

Gülüm, Mirhəmidi, gəl, yaxşı tanı:
O da Nəsimitək sığmaz cahana.
Tarixə əbədi yazdı adını:
"Yüz can ola,- dedi,- qurban canana!"

22 yanvar 2005

DƏLİ MƏNDƏN AGILLIDIR

Fəzayi-eşqi çün gördüm, səlahi-əqldən durəm,
Məni rusva görüb, eyb etmə, ey naseh ki, məzurəm!

M.Füzuli

"Demə Məcmına dəli, bəlkə də Leyla dəlidir,
Eşq olan yerdə bütün aqili-dana dəlidir".

Ə.Vahid

Məni bir günə salmısan,
Ömrüm, günüm nağıllıdır.
Ağlımı elə almısan,
Dəli məndən ağıllıdır.

Elə Səni fikr edirəm,
Adın dildə zikr edirəm.
"Dəliliyə" şükr edirəm -
Dəli məndən ağıllıdır.

Birdən qəh-qəhlə gülürəm,
Ağlayıb, gözüm silirəm.
Gah məzar qazıb ölürəm,
Dəli məndən ağıllıdır.

Süfrə açıb, qəm yeyirəm,
"Dünya-cəhənnəm!" - deyirəm.
Gah bığlarım çeynəyirəm,
Dəli məndən ağıllıdır.

Telinə gül bağlayıram,
Gah "gedirsən", saxlayıram,
İçin-için ağlayıram,
Dəli məndən ağıllıdır.

Mən zülmət - sən Ulduz kimi,
İşıqlısan gündüz kimi.
Gah yalayıram duz kimi,
Dəli məndən ağıllıdır.

Gah "daş qoyuram" sözünə,
Gah "qaş qoyuram" gözünə,
Gah baş qoyuram dizinə,
Dəli məndən ağıllıdır.

Kərəm dəli, Məcnun dəli,
DƏLİLİK - eşqin xəzəli,
Mirhəmid... çətin düzəli,
Dəli məndən ağıllıdır.

23 yanvar 2005

EŞQİN SƏSİDİR BU SƏS!

...Ruhum dirilir, naz ilə lıərdən ki, güliirsən,
Heyrətdəyəm, ey gül, nə məlahətli səsin var!
Ə.Vahid

Gülüm, telefonda eşitdim səsin:
Səsin məlahəti çaşdırdı məni.
Ürəyim səsinlə duydu nəfəsin:
Səsin hərarəti coşdurdu məni.

Səsini həmişə dinləmişəm mən -
Duymasam, qəlbimdə bir həvəs olmaz.
Bu səsdən qovrulub inləmişəm mən;
Belə nəfəs olmaz, belə səs olmaz!

Qoy, süzgün gözlərin yandırsın məni,
Həyatda nə qədər vardır nəfəsin!
Çətin ki, yaralar sındırsın məni -
Eşqimdə qürurdur, vüqardır səsin!

Səs deyil - dənizdə bir ləpədöyən,
Leylinin, Əslinin sədasıdır bu!
Yel deyil dənizdən sinəmə dəyən,
Nazlı gözəllərin ədasıdır bu!

Bu səsdən Məcnunun Leyli harayı,
Bu səsdən Kərəmin ahı çəkilib.
Bu səsdən ucalıb könül sarayı,
Bu səsdən bədənin ruhu tikilib!

Bütün yaranışdan əzəl yaranıb -
Ulu məhəbbətin səsidir bu səs!

Sonra nura dönüb, ruha dolanıb -
Bu səsi duymadan yaşamaq əbəs!

Özgəylə danışsan, - taleylə barış:
Qətlimə oxunan fərmandır səsin,
Dərdindən xəstə mən, mənimlə danış:
Dərdli Mirhəmidə dərmandır səsin!

24 yanvar 2005

GƏZİR

Bu dağda maral gəzər,
Telini darar gəzər.
Mən yara neyləmişəın,
Yar məndən kənar gəzər?
(“Dilbərim ”xalq mahnısında oxunan bayatı)

Yarım çıxıb seyrangaha,
Naz ilə ellərdə gəzir.
Baxmayır naləyə, aha,
Avazı tellərdə gəzir.

Bu gözəldə insaf hanı,
Axıdır bağrımın qanın.
Özü çəmənlər soltanı,
Aşiqi çöllərdə gəzir.

Aşiqinə süzgün baxır,
Yandırıb odlara yaxır,
Şimşəktək parlayıb çaxır,
Xəyalı göylərdə gəzir.

Yara “cehiz” dərd, qəm seçib,
Dərd mən boyda: ölçüb, biçib,
Qəm könlümə gəlin köçüb:
Yanğısı neylərdə gəzir.

Gül çələngi telindədir,
Gümüş kəmər belindədir.
Qolbağısı qolundadır,
Tərifi dillərdə gəzir.

"Gözləri adam aldadır"*,
Aşiqi qeylü-qaldadır.
Ləbləri şəkər, bal dadır,
Piyalə, meylərdə gəzir.

Göz-qaşının tayı yoxdur,
Yüz qışı var, yayı yoxdur.
Göz yaşımın sayı yoxdur,
Hesabı sellərdə gəzir.

Yar həsrəti ilə dönüb,
Vüsalı müşkülə dönüb.
Mirhəmid bülbülə dönüb,
Ətirli güllərdə gəzir.

4 iyun 2005

1.-misra "Tahir və Zöhrə" dastanında işlənmişdir.

CEYRAN

Elə baxma qəmli-qəmli,
Rəhm et mənə, nolar, Ceyran
Gözün elə süzmə nəmli,
Ömrüm gül tək solar, Ceyran.

Sinəmə dağlar çəkmisən,
Tikandan "bağlar" əkmisən.
Sən can alan mələkmisən,
Baxışın can alar, Ceyran?

Qarşımda nazla durmusan,
Ceyrantək boynun burmusan.
Qəlbimə yara vurmusan,
Təbiblər sanalar, Ceyran.

Gözlərin nazla süzməyə,
Sinəmə yara düzməyə.
Sən olan göldə üzməyə,
Həsrətdir sonalar, Ceyran.

Xal boylanır buxağından,
Bal paylanır dodağından,
O al rəngli yanağından,
Sübh dan yerin salar, Ceyran.

Bəzək vermisən telinə,
Bənzərsən nazlı gəlinə,
Bir dənizsən, sahilinə
Mirhəmid yan alar, Ceyran.

DÜNYA SƏNİN, DÜNYA MƏNİM, DÜNYA HEÇ KİMİN

VƏ YA

DÜNYA TƏKCƏ GÜLDÜRMÜR Kİ...

DÜNYADIR

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur:
Sirrini verməyir sirdaşa dünya.

S.Vurğun

Aqil olan, dünya fikrin çəkmə gəl,
Özü öz fikrini çəkən dünyadır.
Cavablardan bir komacıq tikmə gəl,
Suallardan saray tikən dünyadır.

Nədən oldu, axı, necə yarandı?
Gündüz doğdu, yoxsa, gecə yarandı?
...Düşüncəyə bir bilməcə yarandı,
Tarlasında sirlər əkən dünyadır.

Bir ev hördü: döşəməsi tavanlıq,
Süfrə sərdi: Qəm-qüssəsi yavanlıq.
Ömür verdi: uşaq, qoca, cavanlıq,
Ayla, günlə sərhəd çəkən dünyadır.

Kimini qaldırıb hökmüran edən,
Kiminə var verib, bəzirgan* edən,
Kimin soyundurub, lüt-üryan edən,
Səfillik paltarın tikən dünyadır.

Kimi "külüng çalır" işdə, peşədə -
Kimisi yaşayır kefdə, nəşədə.
Kimini oturdub zülmət guşədə,
Dərd verib, qəddini bükən dünyadır.

Kiminin taleyin nəqş edib nurdan,
Xoşbəxtlik sarayı tikir büllurdan,
Kiminin həyatın seçdirmir gordan:
"İşığın" zülmətdən çəkən dünyadır.

Kiminin ucalır göyə harayı -
Kiminin ucalır göyə sarayı.
Kimin qızıl daraq telin darayır,
Kimin saçın vaxtsız tökən dünyadır.

Mirhəmid, sirrini kimə bildirib,
De kimi ağladıb, kimi güldürüb?
"Mənəm-mənəm!" deyənləri öldürüb,
Cəsədin kəfənə bükən dünyadır.

15 iyul 2005

1.bəzirgan-farsca tacir, kommersant

DÜNYANIN GƏRDİŞİ

(Oğlum Mirramilə ithaf)

Bu dünya əzəldən belə yaranıb:
Kimisi ağlayar, kimisi gülər,
Kasıbın əlləri göyə uzanıb,
Varlılar sevincdən göz yaşı silər.

Dünyanın var-dövlət tərəfi vardır,
Dünyanın elm, hikmət tərəfi vardır,
Dünyanın mərifət tərəfi vardır, -
Baxır kimə nəyi Ruzigar bölər.

Mənəviyyat adlı bir xəzinə var,
Ən ülvi dəyərlər onda toplanar,
İnsan incəliklə göylərə qalxar,
Kobudsa məzara enər, "düzələr".

Əsl insan heç əyilməz alçağa,
Sığınar, tapınar "El" adlı dağa,
Özünü qul sanar - Tanrını ağa,
Yalnız Yaradandan mərhəmət dilər.

Mirhəmidin sözü dürrdür, incidir,
Sevgidə sədaqət ürəyincədir,
Haqq yolunda boynu tükdən incədir,
Kişitək yaşayar, kişitək ölər.

QOCALTDI ZƏMANƏ MƏNİ

(Müəllimim, jılosof fəlsəfə elmləri namizədi,
Hacı Mirmüstəqil Ağayevə ithaf edirəm)

Ah kim, bir dəm fələk rəyimcə dövran etmədi,
Vəsl dərmanı ilə dəfi-dərdi-hicran etmədi.
M.FüzuIi

Dərd əlindən boğuluram,
Qocaltdı zəmanə məni,
Dünya - tava: qovruluram,
Qoydu yana-yana məni,
Qocaltdı zəmanə məni.

Gərdişini dərd edirəm,
Qəm qurudub, dərd didirəm,
Bilmirəm hara gedirəm -
Salıb toz-dumana məni,
Qocaltdı zəmanə məni.

Gözəllərdə naz qalmayıb,
Bülbüldə avaz qalmayıb,
Fəsillərdə yaz qalmayıb,
Atıb zimistana məni,
Qocaltdı zəmanə məni.

Eşq, məhəbbət unudulub,
Cəngavər dönüb qul olub,
Hər şeyin başı pul olub,
Gətirib cəzanə* məni,
Qocaltdı zəmanə məni.

---

cəzanə - farsca "təngə gətirmə", "usandırma", "cana yığma"

Kasıb - çörək acı olub,
Varlı - gedib Hacı olub.
Pul-istedad tacı olub,
Salıb bəd gümana məni,
Qocaltdı zəmanə məni.

Anlayana - qəmli neydi,
Başdan-ayağa gileydi,
Mirhəmidəm, qəddim əydi,
Döndərdi kamana məni,
Qocaltdı zəmanə məni.

08 yanvar 2005

YERİNDƏDİR

(Bu günlərdə bir qrup alim şeirlərimdə heca "uyğunsuzluğu " axtarırdı)

İlahidən gələn şeirin
Hecası düz yerindədir,
Şeirin canı - "ilahi söz"
"İlahi söz" yerindədir.

Şeirim götür, ara, sına:
Bənzər şeir sonasına,
Könül aşiq mənasına,
Mənası naz yerindədir.

Mənim şeirim gülcamaldır:
Yar başında tirmə şaldır,
Qaş altında qoşa xaldır,
Məqamı göz yerindədir.

Yaranıb nazla əsməyə,
Can almağa tələsməyə.
Bağrımın qanın kəsməyə,
Tellərin buz yerindədir.

Bülbül həsrət gül öpməyə,
Dodaq yanır dil öpməyə.
Sinəmə yara səpməyə,
Gözlərin köz yerindədir.

Sənsiz mənə ömür zülüm,
Çox yandırma, qalar külüm,
Sən olan könüldə, gülüm,
Zimistan yaz yerindədir.

Eşq-İlahidən aşağı,
Eşq - yaranış yaraşığı.
Məcnun bir pillə aşağı,
Mirhəmid öz yerindədir.

16 yanvar 2005

NEYLƏYİM

Tale mənə yar olmasa, mən neyləyə billəm,
Zövqiimcə nigar olmasa, man neyləyə billəm.
Ə.Vahid

Yenə könlüm evi viran qalıbdır:
Meylin salıb bir canana, neyləyim?
Gözüm görən kimi heyran olubdur,
Qara gözlü bir ceyrana, neyləyim?

Zülfü qulac, boyu bir az bəstədir,
Duruşu şux, yerişi ahəstədir,
Onu görən gündən canım xəstədir,
Möhtac olub ləb-dərmana, neyləyim?

Gözü almaz, kipriklər ox, qələm qaş,
Əriyir önündə gilə-gilə yaş,
Süzgün baxışlara qurban getdi baş,
Yerin verdi çən, dumana, neyləyim?

Gülüşüylə aşiqdən can alandır,
Bilməm nədən əğyara mehr salandır,
Özü oruc tutub, namaz qılandır,
Rəhm etmir mən müsəlmana, neyləyim?

Yardan ayrı necə gözüm dolmasın,
Xəzan olub bağım, gülüm solmasın?
Bundan belə bir gün mənsiz olmasın,
And verirəm əhd-peymana, neyləyim?

Sevən könüllərdə mərhəmət gərək,
Rəhm olmasa, dözə Mirhəmid gərək,
Bizimlə hökm etsin Ədalət gərək,
Ümid qalıb Süleymana, neyləyim?

18 yanvar 2005

GƏLMİŞƏM

Gəlmişəm mən, ey təbib, dərdimə dərman edəsən,
Gəlməmişəm, gözəlim, bağrımı al qan edəsən.
Ə.Vahid

Bu dünyaya, əvvəl-axır,
Yazıq olmağa gəlmişəm,
Qəmli gözdən qan-yaş axır,
Gül tək solmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Bülbül güldən çəkir nazı,
Yayılır elə avazı.
Mən isə sədəfli sazı,
Qəmlə çalmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Şükr edirəm Yaradana:
Adım bağlı yar adına.
Bir insafsızın oduna,
Mən qovrulmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Ürək odu alır gözdən,
Məcnun inciməz haqq sözdən:
Sevgidə yan keçib düzdən,
Mən Dağ olmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Kərəm bir ah çəkdi, yandı,
Ah çəkib yanmaq asandı.

Qəlb baxışla alovlandı,
Ahsız yanmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Həsrət qaldım yarımağa,
Yarla qoşa qarımağa.
Əğyar telin daramağa,
Mən saç yolmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm.

Məcnun üsyan etdi səbrə,
Kərəm dözmədi hər cövrə.
Mirhəmidəm, yeni dövrə,
Dastan olmağa gəlmişəm,
Gözü dolmağa gəlmişəm!

19 yanvar 2005

İMTAHANA GEDİRƏM

İmtahan müharibədən də qorxuludur.

Napoleon Bonapart

Vəfalısan, gözəlim, çəkdim imtahana səni,
Vəfada tək yetirib gərdişi-zəmanə səni.

Ə.Vahid

Bu gün məni ahü-fəqan gözləyir,
Qorxa-qorxa imtahana gedirəm,
Bədəndə can, damarda qan "Döz!" deyir,
"Sorğu" adlı bir cahana gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

Bu dünyanın sər* tərəfi sorğudur,
Xeyir tərəf, şər tərəfi sorğudur,
Çox boylanma, hər tərəfi sorğudur,
Əldə tutub bir bəhanə gedirəm,
Qorxa-qorxa imtahana gedirəm.

Yaranış - Eşq, Eşqin özü imtahan,
Könül sevdi qara gözü - imtahan,
Məcnun oldu, seçdi düzü - imtahan,
Ömür oldu bir əfsanə gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

Məhəbbətin nütfəsi nə, maya nə?
Yarandığı həftəsi nə, ayı nə?
Qurbanının hesabı nə, sayı nə?
Mən də dönüb bir qurbana, gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

---

sər - farsca "baş " deməkdir.

Hər aşiqi Leyli Məcnun etməyir,
Təkcə sevmək məcnunluğa yetməyir:
Ürək vurmur, damarda qan getməyir,
Dəyişmişəm qanı qana, gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

Eşqin ilhamını Göydən almışam,
"Ax!" deyib, tamını "Oy!"dan almışam,
Eşq camını Bəstəboydan almışam,
Canın canım sana-sana gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

Eşq aləmi sehrli asimandır,
Hər zərrəsi Mirhəmidə ummandır.
Eşqdən uca bu Eşqi yaradandır,
Sığınaraq Yaradana gedirəm,
Qorxa-qorxa imtahana gedirəm!

21 fevral 2005

TAHİRƏ

(Atası sevimli müəllimlərimdən, özü isə sevimli şagirdlərimdən olan Tahirə Şahmirzə qızı Mirzəyevanın əziz xatirəsinə)

Doyulmaz dünyadan doydunmu yəni,
Yoxsa ki, ömürdən bezdin, Tahirə?
Bu xəbər yamanca sarsıtdı məni,
Bağrımın başını əzdin, Tahirə.

Axı, sən, gül açmış tər qönçə idin,
Hər güldən, çiçəkdən fər, incə idin.
De, kimdən darıldın, kimdən incidin,
Ya, kimin eyhamın sezdin, Tahirə?

Fələk gözləmədi heç haqqı-sayı:
Otuz yaş görmədin ömürdən payı,
Ananın göylərə qalxır harayı,
Ömrünə mələklik yazdın, Tahirə.

Nə tez doydun daramaqdan telləri,
Səhər-səhər sulamaqdan gülləri.
Kəsilsin ömrünə qıyan əlləri,
Gəlinkən məzarın qazdın, Tahirə.

Fələyin bu imiş möhlət, amanı:
Ölümün inlətdi neyi, kamanı.
Ovutmaq olmayır körpə Ləmanı,
Anadan ümidin üzdün, Tahirə.

Dünya faniliyin nəfis anladın,
Ömrünə yazılmış günü danladın.

Namərd ölüm səni nə tez yanladı?
Ölümlə qol-qola süzdün, Tahirə!

Gəlin köçdün-dərd əlindən neyləşdin,
Bəy qızıydın xanım ikən "bəyləş"din
"Əcəl" adlı bir gəmiyə əyləşdin,
"Ölüm" dənizində üzdün, Tahirə!

Bir mehman olmadın ər qayğısına,
"Əcəb" qonaq oldun mar* ağusuna.
Üstündə oxunan el ağısına,
Necə torpaq altda dözdün, Tahirə!

"Pozdun" ata-ana "haqqı -sayını":
"Üstün" tutdun nənə, baba, dayını,
Bətnində apardın övlad payını,
Beşiyin torpaqdan çözdün, Tahirə!

Ölümlə yandırdın ölüm həddin də,
Sinəmdə suallar- di danış, din də.
Tək ata-ana yox, Mirhəmidin də,
Üzünə göz yaşı düzdün, Tahirə!

25 oktyabr

** mar - farsca "ilan " deməkdir.*

QORXUTMA BİZİ, AY ƏMİ

(Bu isti aprel günlərində əmim Mirlətif Əhmədov ağır xəstə yatır.)

Gəl yatağa düşmə hələ,
Qorxutma bizi, ay əmi.
Şux gəz, əsa alma ələ,
Məgər səksən yaş beləmi?
Qorxutma bizi, ay əmi.

Saçın dağların qarıdır,
Şanlı həyatın barıdır.
Ömrün təzəcə yarıdır:
Çaşdırır səksən rəqəmi,
Qorxutma bizi, ay əmi.

Sözlərin düzü Səndədir,
Həqiqət özü Səndədir,
Bir nəslin gözü Səndədir,
Razısan ümid sönəmi?
Qorxutma bizi, ay əmi.

Fələk etdiyini edib:
Bir əmi yarıyla "gedib".
Ağlar gözlərə rəhm edib,
Dağlatma dağlı sinəmi,
Qorxutma bizi,ay əmi

Sənin də nəslin bəydir ki:
Ürək, axı, nə şeydir ki.

Səsin də qəmli neydir ki,
Qondurma çöhrənə qəmi,
Qorxutma bizi, ay əmi.

Bir bax: gəlib ilin yazı,
Bülbülün coşur avazı.
Gül bülbülə edir nazı,
Yoxsa ki, bülbül güləmi?
Qorxutma bizi, ay əmi.

Qurma bizə oyun böylə,
Bəlkə deyil oyun, söylə?
Mirislamın* toyun eylə,
Qov qəmi, nisgil,ələmi,
Qorxutma bizi, ay əmi.

Cavanlıq ömrə sultanlıq,
Qocaldın-bitdi xaqanlıq.
Mirkamalı et bir yanlıq,
Versin ömrünü yeləmi?
Qorxutma bizi, ay əmi.

Ömür yuxu, nağıldır ki,
Həyat şəkər, noğuldur ki,
İdris elə oğuldur ki...
Keçib "kürəkənlik dəmi",
Qorxutma bizi, ay əmi.

Sadəlik sənin qanında,
Həyat eşqi var canında.
Ehtiram dayın yanında,

*Mirislam - 9 yaşlı nəvəsidir.

Qulluğunda qul, köləmi?
Qorxutma bizi, ay əmi.

Mirhəmid Əmrə* müntəzir:
Əlləri qoynunda gəzir,
Sənə qəmli şeir yazır,
Göz yaşı səpir qələmi,
Qorxutma bizi, ay əmi.

15 aprel 2006

**Əmr - Allah ərnri nəzərdə tutulur.*

MÜQTƏDİR

(Həyatdan vaxtsız və nakam getmiş əmim oğlu Müqtədirin əziz xatirəsinə)

Sən saydığını say, gör fələk nə sayır.
(Atalar sözü)

Taleyin hökmünə müti baş əydin,
Vaxtsız tərk eylədin bizi, Müqtədir.
Nə çatdın arzuya, nə kam eylədin,
Əzəldən beləymiş yazı, Müqtədir.

Bu fani dünyaya gəldin hamı tək,
Əritdin ömrünü qəlbin şamı tək.
Dedin:"İçəcəyəm əcəl camın tək!"
Yaşandı ömrünün azı, Müqtədir.

Ölüm kabus oldu solun-sağına,
Girmədin məhəbbət, sevgi bağına,
Dodağın dəymədi yar dodağına,
Qucmadın gözəldən nazı, Müqtədir.

Dil açdın, ilk sözü "Ana" söylədin,
"Gələydi dərdlərin mana!"- söylədin,
Son sözü sən yenə ona söylədin,
Oldun açılmaz sirr, yozu, Müqtədir.

Bu qısa ömründə böyük yol keçdin,
Sevginlə qəlblərə əbədi köçdün,
Əcəl şərbətini nə erkən içdin,
Yamanca yandırdın bizi, Müqtədir.

Vaxtsız xəzan olan ömür baharı,
Ömrə vida dedin olmamış yarı.
O xəstə atanı duyaydın barı,
Yanan sinəsinin közü Müqtədir.

Payızda büsatın qurular, - dedik,
Bacılar oynayıb yorular, - dedik,
Qolun yar boynuna sarılar,- dedik,
Yandı arzumuzun tozu, Müqtədir.

Üz didib, saçını yolanı tanı,
Gül kimi saralıb solanı tanı,
Qəlbi göz yaşıyla dolanı tanı,
Yazıya yox imiş pozu, Müqtədir.

Atan qəm yükünü ürəyə verib,
Sevincin Sən adlı diləyə verib.
Anan saçın yolub küləyə verib,
Əsən sən tərəfə üzü, Müqtədir.

Fələk canımızda dərd yerləşdirib,
Sanma ki, ayırıb dərd, birdləşdirib,
Bizi mərdləşdirib, dərd ərləşdirib,
Ayırmaz şeytanın yüzü, Müqtədir.

Dərdin Mirhəmidi doğrayır, kəsir,
Sənsizlik əlində qalıbdır yesir.
Demə ki, tək əli, qələmi əsir,
Titrəyir şeirində sözü, Müqtədir,
Yaman ağlar qoydun bizi, Müqtədir!

26 sentyabr

MÜNDƏRİCAT

Qəmdən yazanların
biri də artdı... 3
Müəllifdən 7

Ömrüm bir məhəbbət...
Dönüb nağıla 12
Köçməyəcəkdir 13
Məhəbbət 15
Gözünə 16
Gözlərimi Həsrət Qoyma Gözünə 17
Sözlə Deyiləsi Deyil 18
Eh, Sənincün Sevgi Nədir,
Eşq Nədir? 20
Vüsal Nəgməsi 22
Həsrətdən Gözlərim
Qabar-Qabardir 23
Bu Qizin 25
Bu Dünyanin Ay Bəxtəvər Gözəli! 26
Sən Allah, Sən Mənə Öz Adimi De! 27
Gözlərin 28
Gülüm, Bu Şeirlər Sənindir Axi 29
Cəmi Otuz Addim... 31
Nə Olar, Sən Mənim
Gözlərimə Bax! 33
Sevgi Məgər Qadağadir? 34
Ömrüm Məhəbbət Nağili 36
Düşüb 38
Qiz Deyil, Allahin
Bəlasidir Bu 39
Bilmirəm 41
Niyə Canim Üzürsən? 43
Səni Həmdəm Bilirəm 45

“Yurdum, yuvam məskənimsən, Azərbaycanim!” 47
Mən Də Sizin Elliyəm 48
Yurda Yeni Il Gəlir 51
Anam Biləsuvar 54
Yardimli 56
Perimbel 58
Barişsin 60
Vətən Sevgisi 61
Gərək 63
Mən Sizə Borcluyam
Dünyalar Qədər 64
Ata 65
Anama Qurban 67
Sonbeşiyim - Ayselim 69
Müəllim 71
Nadir 72
Sabirin Səsi 74
Rəvanə Qizim 76
Ellər Logmani 78
Ithaflar 80
Bizim Sevinc 81
Könul 83
Ulduzu 84
Sahilə 86
Nigar 88
Nazilə 90
Xanim 92
Mehriban 94
Sabirabadlı qardaşlar 96
Mais 98
Bir Yaşli Şeirimlə Üz-Üzə 100
Təbriklər 101
40 Yaşin mübarək, bacı! 102

Elnurə 104
Əkizlər 106
Pərvanə 108
Pərvin 110
Dəli məndən ağıllıdır 111
Qurban olum saçlarının rənginə 112
Sən də mənim müəllimim olaydın 114
Mənim diş yerimdir ləbdəki xalın 116
Olur 117
Qaytar dodaq borcunu 118
Ya sənə verər Allah,
Ya mənə verər Allah 120
Xəbərin varmı? 122
Öldürür 124
Boynumda nə qədər qurbanlar durur! 125
Mənim günahlarim əfv edə bilsən... 127
Dəli Məndən Agillidir 129
Eşqin Səsidir Bu Səs! 131
Gəzir 133
Ceyran 135
**Dünya sənin, dünya mənim, dünya heç kimin
və ya dünya təkcə güldürmür Ki...** 136
Dünyadir 137
Dünyanin Gərdişi 139
Qocaltdi Zəmanə Məni 140
Yerindədir 142
Neyləyim 144
Gəlmişəm 145
Imtahana Gedirəm 147
Tahirə 149
Qorxutma bizi, ay əmi 151
Müqtədir 154

Mirhəmid Mirəli oğlu Qənizadə
Qəm könlümə gəlin köçüb
(şeirlər)

Bakı-Mütərcim-2009

Nəşriyyatın direktoru: **Telman Cəfərov**
Texniki redaktor: **Mətanət Qaraxanova**
Komputer tərtibatı: **Emiliya Ağakərimova**

Çapa imzalanıb: 25.08.2009.
Format:84x108 1/32. Ofset çap. Ofset kağızı.
Həcmi: 10 ç.v.
Sifariş № 64. Qiyməti müqavilə ilə

"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi
Az 1014. Bakı şəh., Rəsul Rza küç.,125
Tel./fax: 596 21 44
E-mail: mutarjim@mail.ru

Mirhəmid Qənizadə
(Qənizadə Mirhəmid Mirəli oğlu)

1958-cu il 21 dekabrda Biləsuvar rayon İsmətli kəndində anadan olmuşdur. 1981-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və ədbiyyatı institutunu (indiki Bakı Slavyan Universiteti), 2005-ci ildə isə ADU-nun Tarix fakültəsini bitirmişdir. O, nadir səsə və istedada malik xanəndələrdən biridir. Azərbaycan Dövlət Televiziyasının Fondunda xalq mahnılarından ibarət bir neçə lent yazısı vardır.

İlk şeirlərini isə 2004-cü ilin sonlarında yazmışdır. Mətbuatda mütəmadi olaraq müstəqil elmi-bədii mövzularda çıxış edir.

"Qəm könlümə gəlin köçüb" kitabı onun ilk şeirlər kitabıdır.

Bakı şəhərində yaşayır. Evlidir. 4 övladı var.